Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9
İYUN
2020-ci il
№ 90 (4221)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 8 ■

# ERMƏNİSTANDA FAŞİSTLƏRDƏN SONRA ASALA TERRORÇULARINI DA HİMAYƏ ETMƏYƏ BAŞLAYIBLAR...

Prezident AŞPA-nın 2001-ci ildən qəti məşğul olmadığı öhdəliyini gündəmə gətirdi - Qarabağ münaqişəsi də sizin missiyanızdır...
■ səh. 3 ■

Prezident sahibkarlığa güzəştli kreditlər sistemini köklü dəyişdirdi - 10 mindən 10 milyona, 3-10 illiyə...
■ səh. 12 ■

Azərbaycan diplomatik müstəvidə Ermənistana daha ağır zərbələr vurur - İrəvanda "hökuməti 100% dəyişmək lazımdır" çağırışları gündəmdə...
■ səh. 9 ■

"Şimal axını-2"nin gələcək taleyi ciddi sual altında - Azərbaycan Avropanın tək ümid yeri oldu
■ səh. 11 ■

Koronavirus müstəvisində Ermənistanda nə baş verir - Paşinyanın yeni oyunu, ya yarıtmaz siyasətin fəsadları...
■ səh. 8 ■

Koronavirus Ermənistanı tamamilə çökdürür, Paşinyanın isə axırına çıxır...
■ səh. 7 ■

Reanimasiyada müalicə alan azərbaycanlı koronavirus xəstələrinin videogörüntülərini kim və necə ictimailəşdirib?
■ səh. 13 ■

Tarix-mədəniyyət abidələrinin bərpa xidmətinin həbs olunmuş rəhbərliyinin daha bir cinayəti - Goranboyun Safıkürd qəbiristanlığı...
■ səh. 15 ■




■ səh. 4 ■

## Bakı küçələrində koronavirusla mübarizədə can qoyan polislərə qarşı idarə olunan təxribatlar...

*Azərbaycan polisini qaralamaq istəyənlərə güllə kimi zərbə faktları...*



Erməni mediası bəzi partiya funksionerlərimizin, deputatlarımızın Qarabağ fikirlərini Azərbaycan əleyhinə çevirir - «Azərbaycan müharibədən çəkinir»...
■ səh. 6 ■

Paşinyanın və daha 17 erməni məmurun adı beynəlxalq siqaret qaçaqmalçılığında...
■ səh. 6 ■



Əbülfəz Elçibəy rus KQB casuslarını niyə himayə etdi - Sülhəddin Əkbərdən ittiham...
■ səh. 5 ■

■ səh. 5 ■
Polisin bugünkü işini qara-qura həmlələrin hədəfinə alanlar...



■ səh. 10 ■
ÜST Ermənistanı təhlükəli koronavirus zonası elan edə bilərmi...



■ səh. 14 ■
Həftəsonu sərtləşmiş karantin pozuntularının yoluxma prosesinə sürətləndirici təsirləri...



■ səh. 13 ■
Dəniz suyunda koronavirusların təhlükəlilik ehtimalı...



■ səh. 12 ■
Ucqar kəndlərimizin təhsil müəssisələrində kadr çatışmazlığının səbəbləri - mütəxəssislərlə həll yollarını müzakirə edirik...



## Xarici İşlər Nazirliyi qarayaxma kampaniyası ilə bağlı DTX-ya müraciət etdi

**Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi olaraq, şəxsi məsələləri şərh etmirəm və bu barədə əvvəl də bildirmişdim. Lakin son günlərdə Xarici İşlər Nazirliyinə qarşı bilərəkdən yalan və böhtan kampaniyasının aparıldığını müşahidə edirik. Bu qarayaxma kampaniyasının araşdırılması və müvafiq tədbirlərin görülməsi məqsədilə tərəfimizdən Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) rəsmi müraciət edilib.**

Baki-xeber.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib.

L.Abdullayeva bildirib: "Vətəndaşın şərəf və ləyaqəti ölkəmizdə Konstitusiya və digər qanunvericilik aktları ilə qorunur. Heç bir halda ifadə azadlığı vətəndaşın şərəf və ləyaqətini ləkələmək hüququ vermir. Şəxsi həyata müdaxilə edərək təhqir və böhtan xarakterli məlumatları yayanlar məsuliyyətə cəlb olunmalıdır.

Xarici İşlər Nazirliyinin həyata keçirdiyi vəzifələr strateji əhəmiyyətlidir və bilərəkdən bu mühüm dövlət orqanı barədə yalan və qərəzli məlumatların dövriyyəyə buraxılması dövlətin milli maraqlarını ciddi təhdid etməklə yanaşı, müstəqil respublikamızın beynəlxalq nüfuzuna da xələl gətirir.

Bu səbəblərdən qarayaxma kampaniyasının araşdırılmasını və Azərbaycan qanunvericiliynə uyğun olaraq müvafiq tədbirlərin görülməsini zəruri hesab edirik".

## Azərbaycanda 323 nəfərdə koronavirus aşkarlandı, 228 nəfər sağaldı, 5 nəfər vəfat etdi

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına 323 yeni yoluxma faktı qeydə alınıb, 228 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış beş nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 7876 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 4 377 nəfər müalicə olunaraq sağalıb, 93 nəfər vəfat edib, 3 406 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 343 391 test aparılıb.

# "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edildi



**Prezident İlham Əliyev "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycanın unikal təbiət abidələrindən olan Siyəzən rayonunun Qalaşıxı kəndi ərazisindəki Beşbarmaq dağının ətrafında dövlət mühafizəsinə götürülmüş bir sıra tarix və mədəniyyət abidələri (son tunc - ilk dəmir dövrünə aid yaşayış yeri, Xızırzində piri, ilk orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları) yerləşir.

İlk orta əsrlərə aid Beşbarmaq paralel müdafiə səddi "Xəzər sahil mühafizə konstruksiyaları" daxilində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin Siyahısına daxil edilib.

Sərəncamla Beşbarmaq dağının Azərbaycan tarixi və mədəni irsi üçün əhəmiyyəti nəzərə alınaraq, ətraf ərazilərdə mədəni və təbii irsin qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədilə Siyəzən rayonunun Qalaşıxı kəndində yerləşən Beşbarmaq dağı təbiət abidəsinin ərazisi "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilir.

Dövlət Turizm Agentliyi "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun idarə olunmasını təmin edəcək, Nazirlər Kabineti isə Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası və Siyəzən Rayon İcra Hakimiyyəti ilə birlikdə iki ay müddətində "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun sərhədini və mühafizə zonasını müəyyənləşdirib təsdiq edəcək, Qoruğun ərazisinin xüsusi rejimini üç ay müddətində müəyyən edib Prezidentə məlumat verəcək.

"Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun fəaliyyəti ilə bağlı tələb olunan zəruri xərclər 2020-ci il dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçiriləcək.



# Daxili İşlər Nazirliyi vətəndaşlara təşəkkür etdi

**Daxili İşlər Nazirliyi vətəndaşlara təşəkkür edib. Nazirlikdən baki-xeber.com-a verilən məlumatda deyilir: "Xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar ötən həftənin şənbə və bazar günlərində sizlərə yaşayış yerini və olduğu yeri tərk etmək qadağan edilib.**

Sizin sağlamlığınız naminə atılan bu addımları anlayışla qarşıladığınıza görə, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinizə görə sizə daxili işlər orqanlarının bütün şəxsi heyəti adından təşəkkürümüzü bildiririk!

Siz səbr və təmkinlə iki gün evdə qalmaqla həm özünüzün, həm də yaxınlarınızın sağlamlığını qorumuş oldunuz. İnanırıq ki, gələcəkdə də belə qərar verilərsə, siz yenə də eyni səbr və təmkin nümayiş etdirəcəksiniz. Bir daha təşəkkür edirik!"

# Aydın Quliyev: "Polis özünü yalnız yaxşı tərəfdən nümayiş etdirir"

**Polis həm həftəsonu sərtləşdirilmiş qaydaların icrasına nəzarət zamanı, həm də ümumiyyətlə ölkədə son bir neçə ay ərzində pandemiya ilə mübarizə dövründə özünü yalnız yaxşı tərəfdən, peşəkar olaraq nümayiş etdirib.**




Polislə əlaqəli hadisələr, faktlar bir daha sübut edir ki, Azərbaycanda polisin fəaliyyəti ölkədə sabitliyin, ictimai qaydanın qorunmasının və əhali arasında əminamanlığın mühafizə olunması prosesinin ayrılmaz tərkib hissəsidir.

Bunu Teleqraf.com saytına açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev deyib.

O qeyd edib ki, polis, xüsusilə həftəsonu sərtləşdirilmiş qaydalara nəzarət dövründə həm özünün əsas funksiyalarının yerinə yetirilməsində, həm də sərt karantin qaydalarının icrasına nəzarət sahəsində olduqca məhsuldar fəaliyyət göstərib: "Polis eyni vaxtda həm cinayətkarların axtarışı, təqibi, həm ictimai qaydanın qorunması, həm ölkədə şəxsi və dövlət əmlakının mühafizəsi ilə məşğul olub, həm də sərt karantin qaydalarının vətəndaşlar tərəfindən icrasına nəzarət üzrə öz peşəkar fəaliyyətini yerinə yetirib. Ancaq çox təəssüflər olsun ki, bu günlərdə polisin fəaliyyətini qaralamaq istəyən müəyyən cəhdlərə də rast gəlindi. Əlbəttə, bunlar qərəzli yanaşmalar, idarəolunan addımlardır".

Politoloq qeyd edib ki, həmin cəhdlər, xüsusilə asayiş keşikçilərinin bu günlərdə köməksiz vəziyyətdə qalan insanlara çörək alıb aparması, doğuş üstə olan qadını xəstəxanaya çatdırması, şəxsi planda fəlakətə düşmüş insanlara köməklik edilməsi və sair kimi polisin cəmiyyətə çox yaxın bir struktur olduğunu nümayiş etdirən faktların kölgədə qalmasına və gözdən salınmasına qəti şəkildə əsas ola bilməz: "Yəni polisin fəaliyyətini nə qədər qaralamaq cəhdləri olsa da, bunlar Azərbaycan polisinin, xüsusilə bu günlərdə göstərdiyi səmərəli fəaliyyətə kölgə sala bilməz".

# Prezident AŞPA-nın 2001-ci ildən qəti məşğul olmadığı öhdəliyini gündəmə gətirdi - Qarabağ münaqişəsi də sizin missiyanızdır...

**Bu günlərdə Tərtər Olimpiya İdman Kompleksinin açılışı zamanı rayonun bir qrup idmançısı qarşısında çıxışı zamanı Prezident İlham Əliyev bir sıra məsələlərə toxunub.**

Ölkə başçısı qeyd edib ki, bütün aparıcı ölkələr Qarabağdakı "seçkilər"i qınayıb, Avropa Şurası Parlament Assambleyasından başqa: "İndi Dağlıq Qarabağda da xunta rejimi hökm sürür. Əlbəttə, xunta rejimi tərəfindən keçirilmiş saxta seçkilər bir şoudur, bir təlxəklər tamaşasıdır. Bütün aparıcı ölkələr bu dırnaqarası seçkiləri qınayıb və tanımayıb. Baxın, özü də bəyanatlar qəbul ediblər. ATƏT-in Minsk Qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya bəyan ediblər ki, "seçkilər"i tanımırlar. Avropa İttifaqı bəyan edib ki, "seçkilər"i tanımır. Avropa Parlamenti, həmçinin, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər təşkilatlar - bütün aparıcı beynəlxalq təşkilatlar bu "seçkilər"i qınadı, təkcə Avropa Şurasından başqa. Avropa Şurası susdu".

Hansı ki, Azərbaycan 2001-ci il yanvarın 17-də Avropa Şurasına eyni gündə üzvlüyə qəbul olunan zaman Azərbaycan və Ermənistan Avropa Şurası qarşısında bir sıra öhdəliklər götürüblər. Həmin öhdəliklərin biri də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələdir. Həmin öhdəliklərin monitorinqini Avropa Şurası həyata keçirir. Deməli, münaqişə məsələsinə dair fikir bildirmək elə həmməruzəçilərin birbaşa mandatına daxildir. Ancaq ötən 19 ildə AŞ Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı təsirli tədbirlər görmədi. İşğalçı ölkəyə gərəkən təzyiqləri göstərmədi.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, AŞPA zaman-zaman Azərbaycana münasibətdə ikili standartlardan çıxış edib: "O cümlədən, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı işğalçı tərəfə gərəkən təzyiq göstərməyib. Hansı ki, münaqişənin tənzimlənməsi həm də sözügedən qurumun missiyasıdır. Prezident məlum çıxışında da həm də sözügedən qurumun üzərinə düşən missiyanı yerinə yetirmədiyini gündəmə gətirdi. Ermənistandan fərqli olaraq, Azərbaycan üzərinə düşən öhdəliklərə sadiqdir. Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı öhdəliklərin monitorinqini məhz Avropa Şurası həyata keçirir.

## *Seyid Camal Əzimbəyli: "Qurum Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı işğalçı tərəfə gərəkən təzyiq göstərməyib"*




Belə olan halda, münaqişə məsələsinə dair fikir bildirmək, ilk növbədə, həmməruzəçilərin mandatına daxildir. Onlar isə susurlar. Ona görə ki, işğalçı tərəfə təzyiq göstərmək istəmirlər. Ötən illər ərzində Ermənistan münaqişənin həlli istiqamətində bir addım belə atmaq istəməyib. Həlledici məqamlarda müxtəlif bəhanələrlə danışıqlardan yayınıb. AŞPA bütün bu proseslərin monitorinqini aparmağı öz öhdəsinə götürsə də, bunə əməl etməyib. Eyni zamanda, bununla bağlı prinsipial mövqe ortaya qoymayıb. Ona görə də AŞPA-nın ədalətli qurum olmasından söhbət belə gedə bilməz".

***Vidadi ORDAHALLI***

# Prezident AŞPA-nın hörmətsiz günə düşdüyünə tutarlı fakt gətirdi - 384 deputatdan cəmi 69-nun iclasda olduğu vaxtlar var...

**2020-ci il iyunun 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışı zamanı rayonun bir qrup idmançısı qarşısında çıxışı zamanı Prezident İlham Əliyev proqram xarakterli olduqca vacib məqamlara toxunub.**



Son vaxtlar Avropa Şurasının Parlament Assambleyasının ölkəmizə qarşı nifrət aşılayan, mahiyyət etibarilə azərbaycanafobiyanı özündə ehtiva edən mövqeyi Prezident İlham Əliyevin diqqətindən yayınmayıb:

"Heç kəsə sirr deyildir ki, son vaxtlar Avropa Şurası Parlament Assambleyası (AŞPA) tamamilə nüfuzdan düşmüş bir quruma çevrilmişdir. Görünür, AŞPA məhz Azərbaycanın hesabına özünə reytinq yığmağa çalışır. AŞPA-da son illər aparılan müzakirələrin daha sönük keçməsi heç kəsə sirr deyildir. AŞPA-nın 324 əsas üzvü olsa da, müzakirələr zamanı əksər hallarda ümumi sayın 1/3 və ya daha aşağı hissəsi plenar iclaslarda iştirak edir. Məsələn, AŞPA-nın bu il yanvarın sonlarında keçirilmiş qış sessiyasında Assambleyanın monitorinq proseduru ilə bağlı tərəqqi hesabatının səsverməsində 69 deputat, son vaxtlar AŞ-nin əsas müzakirə mövzularından biri olan yeni komplementar prosedurla bağlı qətnamənin səsverməsində isə 163 deputat iştirak etmişdir".

AŞPA-nın bu şəkildə hörmətdən düşməsi nə ilə bağlıdır?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa Şurası Parlament Assambleyası qurumun 47 üzv dövlətinin siyasi qrup nümayəndələrindən formalaşan bir təşkilatdır:"Formalaşdığı zamanlardan üzv dövlətlərin müxtəlif siyasi qrupların öz maraqlarını qurumun hesabına müdafiə edəcəyi, bu qədər geniş imkanlara malik olan təşkilatın imkanlarından öz maraqları üçün istifadə etmə cəhdləri gözlənilən və qaçılmaz idi.

Bilirik ki, AŞPA-da üzv ölkələri müxtəlif mövzularda informativ xarakterli dinləmələrin təşkili, ölkələr üzrə bu və ya digər mövzularda hesabat hazırlayacaq həmməruzəçilərin təyin olunması və qurumun fəaliyyətinin səmərililiyinin artırılması üçün hesabatların təşkil olunması adi praktikadır. Ancaq bu dinləmələr, hesabatlar və ya həmməruzəçilərin fəaliyyəti bəzi ölkələrə qarşı təzyiq və təsir üsulları kimi istifadə olunur. Bəzən bu proseslər AŞPA üzvü olan müstəqil dövlətlərin məhkəmə hüquq sisteminə təzyiq cəhdləri, hüquqi proseslərə siyasi qərarlarla təsir cəhdləri və siyasi təqib kampaniyalarla müşayiət olunur. Bir sözlə, AŞPA təşkilat olaraq üzv dövlətlərə qarşı fəaliyyət üçün poliqon rolunu oynayır.

Üzv dövlətlərin milli nümayəndə heyyətlərindən formalaşan üzvlər isə hər hansı bir siyasi, iqtisadi lobbi qrupunun təqdimatında aparılan, onların dövləti və ya özü üçün heç bir əhəmiyyət daşımayan prosesdə iştirak etmək marağında olmurlar və ancaq öz dövlətləri ilə bağlı tədbirlərə qatılırlar. Bunun da nəticəsində iştirakçılıq azalır, sessiyalar boş keçir.

Digər bir məsələ - AŞPA-nın sessiyalarında aparılan işlərin obyektivliyi və ən əsası faydalılığı çoxlu açıq suallar yaradır: məsələn, niyə AŞPA müxtəlif siyasi-iqtisadi lobbi qruplarının və ya üzv dövlətlərin rəqib ölkələrə qarşı təhrif olunmuş informasiyalar əsasında qərəz və təzyiq kampaniyası aparılan platformaya çevrilməsinə göz yumur?

Ən əsas sual isə, əlbəttə, AŞPA da sessiyaların gündəliyinin tərtibatı ətrafında olan narahatlıqlarla bağlıdır. Tərtibat zamanı prioritet mövzuların müəyyənləşdirilməsi, eyni situasiyalı üzv ölkələrə qarşı ikili stndartlar, qərəzli mövqe ilə müşaidə olunur.

Nəticədə, AŞPA-nın adının ətrafında formalaşan qərəzli təşkilat imici onun hörmətdən, nüfuzdan düşməsinə səbəb olur. Son zamanlar isə, hətta beynəlxalq bir qurum kimi legitimliyinə şübhə ilə yanaşmaların meydana çıxmasına şərait yaradır".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakı küçələrində koronavirusla mübarizədə can qoyan polislərə qarşı idarə olunan təxribatlar...

**Ötən gün Bakının Yasamal rayonunda yaşayış məntəqəsində polisin başına zibil atanlar tutulub. Qeyd edək ki, iyunun 7-də sərt karantin rejimi zamanı Bakının Yasamal rayonu, Dadaş Bünyadzadə küçəsində yaşayan sakinin saxlanmasına etiraz olaraq bina sakinləri polisin üstünə zibil torbaları atıblar.**

Keçirilən əməliyyat zamanı həmin əraziyə polis əməkdaşları cəlb olunub. Onlar binaya daxil olaraq bir neçə nəfəri saxlayıblar.

Polislərin başına zibil torbalarının necə atılması ilə bağlı videolar sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Əksər sosial şəbəkə istifadəçiləri sərt karantin günlərində əziyyət çəkən polislərə qarşı edilən bu addımı təxribat adlandırıb. Bu cür əməllərdə polisə qarşı xüsusi təxribatın olması versiyası nə dərəcədə əsaslı sayıla bilər?

Polisə Dəstək İctimai Birliyinin sədri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verən məlum hadisəningörüntülərini çox təəssüf hissilə izləyib:"Burada bir çox detallara nəzər salmaq olar. Həmin adamların içində təxribat yaratmağa meylli insanların olmasını istisna etmirəm. Həmin videodan görünür ki, polis karantin rejimini pozan şəxsi avtomobilə mindirmək istəyir. Bu əməli ilə polis heç bir qanun pozuntusuna yol vermiş olmur. Ancaq kənardan binalarda yaşayan bir neçə şəxs digər vətəndaşları polisə itaətsizliyə, hətta onlara qarşı zor tətbiqinə çağırdılar. Həmin hadisədə təsadüfən təxribata uyan vətəndaşların da olmasını istisna etmirəm. İstənilən halda, ortada heç də xoş olmayan bir mənzərə var. Belə bir çətin zamanda vətəndaşların polisə yönəlik bu cür aqressiv hərəkəti polisin nüfuzunu aşağı salmağa hesablanıb. Bilə-bilə, əhalinin gözü qarşısında belə hadisəni təşkil etmək yalnız polisə ziyan vurmur. Bunun cəmiyyət üçün də ziyanı var. İctimai münasibətlərin gələcəkdə qorunub saxlanması, mühafizə olunması üçün əngəl yaradan amildir. Polis hazırda çox gərgin missiyanı həyata keçirir. Belə vəziyyətdə polisə vətəndaşlardan mənəvi dəstək olmalıdır. Təəssüf ki, həmin vətəndaşlar polisin funksiyasının nədən ibarət olduğunu unudur. Bir balaca cinayət əməli ilə rastlaşan kimi dərhal polisi çağırırlar. İndi nə oldu? Polis yenə öz işini yerinə yetirirdi. Bu amil vətəndaş-polis münasibətlərinə də xələl gətirir. İnsanlar başa düşmədən belə addımları atırlar, amma sonrakı vəziyyətdə bunun fəsadlarını hiss edəcəklər. Karatin rejimində belə hallara yol verənlərə qarşı sərt tədbirlər görülməlidir. Lazım gəlsə, həmin təşkilatçılara cinayət işi də açılmalıdır. Belə məsələdə zərrə qədər də güzəştə getmək olmaz. Bu gün mən polisin həmin ünvanda əməliyyat keçirdiyinə dair görüntüləri izlədim. Bəziləri polisi sərt davranışda ittiham edir.

***Şəmsəddin Əliyev:*** *"Təəssüf ki, həmin vətəndaşlar polisin funksiyasının nədən ibarət olduğunu unudur"*




Heç bir sərt davranış yoxdur. Cinayət etmiş şəxslərin yeri müəyyənləşib və onlar müvafiq qaydada tutularaq məsuliyyətə cəlb ediliblər. Həmin kadrlarda biz bəzi şəxslərin çox normal şəkildə polisə tabe olub, özü addımlayaraq getdiyini gördük. Kimisə bir qədər başqa formada aparırlarsa, bu da onların günahıdır. Görünür, yenə polisin qanuni tələblərinə əməl etməyib, müqavimət göstərmək istəyiblər. Hesab edirəm ki, bu hadisə başqa vətəndaşlarımız üçün də bir maariflendirmə xarakteri daşıyacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan polisini qaralamaq istəyənlərə güllə kimi zərbə faktları...

**Koronavirus pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilən sərt karantin rejimi müddətində polisə qarşı bəzi xoşagəlməz davranışlar müşahidə olundu. Yasamaldakı binalardan birinin önündə karantin qaydasını pozan şəxsi polis avtomobilinə mindirmək cəhdi təxribatla qarşılandı.**

Bəzi adamların təhriki ilə bir sıra vətəndaşlar mənzillərin eyvanından polisin üstünə zibil atmağa başladı. Təbiidir ki, bu cür təxribatçı əməllər cəzasız qalmadı. Həmin şəxslər müəyyən edilərək məsuliyyətə cəlb olundu. Çox təəssüflər olsun ki, sosial şəbəkələrdə bəziləri polisə qarşı edilən əməllərə haqq qazandırmaq istəyir. Onların sayı az olsa da, bəzi faktları nəzərlərinə çatdırmaq yerinə düşərdi.

Məhz belə ağır karantin dönəmində polisin etdiyi bəzi əməllərə diqqət edək. Bakının Qaradağ rayonu ərazisində xidmət aparan polis əməkdaşlarının qürurverici hərəkəti hər kəs tərəfindən müsbət dəyərləndirilib. Yayılan kadrlardan görürük ki, bir neçə polis əməkdaşının xidmət apardığı ərazidə ard-arda yerli musiqilər, sonra Azərbaycan Himni səsləndirilib. Ərazidə xidmət aparan post-patrul xidmətinin əməkdaşları xidməti avtomobildən enərək hərbi salam verib, himni ayaq üstə dinləyib və ifa ediblər.

Başqa belə faktlardan biri Xətai rayonunda yaşanıb. Hamilə qadına ərazidə xidmət aparan Əlahiddə Çevik Polis Alayının əməkdaşları tərəfindən köməklik göstərilməklə onun vaxtında xəstəxanaya çatdırılması təmin edilib. Qadının həyat yoldaşı əvvəlcə ərazidə xidmət aparan polislərə bu barədə məlumat verib. Dərhal polislər xidməti avtomobilə qadını və onun həyat yoldaşını xəstəxanaya aparıblar. Hazırda onun vəziyyəti yaxşıdır.

Sosial şəbəkələrdə yayılan digər maraqlı bir fakta diqqət edək. Daxili İşlər Nazirliyinin "102" Zəng Mərkəzinə müraciət edən Xətai rayon İnqilab İsmayılov 16 ünvanında yaşayan paytaxt sakini Nail Şirinov iri rayon və şəhərlərdə tətbiq edilən sərt karantin rejimi ilə əlaqədar mağazaların bağlı olduğunu, evdə digər ərzaq məhsullarının olmasına baxmayaraq, ailəsinin çörəyə ehtiyacının yarandığını bildirib. Dərhal ərazi üzrə Xətai Rayon Polis İdarəsinin əməkdaşları vətəndaşın mənzilinə gedlb və müraciət edən ailə çörəklə təmin olunub. Nail Şirinov ona göstərilən bu diqqətə görə polislərə təşəkkürünü bildirib.




Bakıda karantin günündə bacısı vəfat edən bir qadın da polislərdən kömək istəyib. Paytaxtın Heydər Əliyev prospektində xidmətdə olan polis əməkdaşlarına yaxınlaşan bir qadın bacısının vəfat etdiyini, lakin icazəsi olmadığı üçün onun dəfninə gedə bilmədiyini deyib. Polis əməkdaşları xidməti maşınla qadını gedəcəyi ünvana aparıb...

Çoxmilyonlu şəhərdə baş verən bu cür hadisələrin sayı, təbiidir ki, çox olub. Biz yalnız onlardan bir neçəsini, yəni sosial şəbəkələrdə ictimailəşənlərini təqdim etdik. Hər birində də polisin nümunəvi davranışının şahidi olduq. Belə xidmət aparan polisin başına zibil atmaq olarmı? Təbiidir ki, bunu edən normal adam ola bilməz...

***Məhəmmədəli QƏRİBLİ***

# Polisin bugünkü işini qara-qura həmlələrin hədəfinə alanlar...

**Xüsusilə də son iki gündə polis strukturlarının fəaliyyətində diqqət cəlb edən bir neçə həlledici məqam var. Bütün polis qüvvələri koronavirusla mübarizə üzrə müvafiq dövlət qurumlarının qəbul etdiyi qərarların icrasına cəlb edilib. O dərəcədə ki, hətta bəzən elə görünür, sanki polislərin işi tək pandemiya ilə bağlıdır.**



Əslində isə koronavirusla mübarizənin bütün ağırlığının üzərinə qoyulduğu polis strukturlarının hər biri həm də öz ana funksiyasının icrası ilə məşğuldur. Başqa sözlə desək, ictimai asayişə nəzarət edilir, cinayətkar elementlər təqib və təhqiq olunur, yeniyetmələrlə iş aparılır, narkotiklərlə, ağır cinayətlərin bütün növləri ilə mübarizə də öz yerində…

Bunu "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev öz "Facebook" səhifəsində yazıb. A.Quliyev daha sonra bildirir:

Pandemiya ilə mübarizə qaydalarının hamılıqla icrasına nəzarət isə bu günlərdə bütün polis sistemini həm şəxsi, həm də strukturlar planında vahid xətt ətrafında toplayan əsas və ümumi prosesə çevrilib. Hər bir vicdanlı şəxs üçün təkcə bunlar kifayətdir ki, polisin bu günlərdə hansı ağırlıqda yükün altında olduğuna qərəzsiz və obyektiv qiymət versin.

Verilir də… Xüsusən bu son iki gündə evi yananın da, doğuşa gedənin də, evində çörəyi tükənmiş kimsəsiz qocanın da, əlinə bıçaq batmış evdar qadının da kömək üçün müraciət və nicat yeri yenə polislər oldusa, nəticə çıxarmaq artıq hər kəs üçün vicdan məsələsidir…

Bunu bütün cəmiyyət görür və dəyərləndirir. Bina mənzillərinin birindən hansısa vətəndaşın həvəskar qaydada səsləndirdiyi dövlət himninin səsini eşidən kimi hərəkətdə və sükan arxasında olan polislərin dərhal sayqı duruşuna dayanmaları qürur mənbəyi olmaqla bərabər, polisin dövlət və ictimai mənafeləri bir arada aparmaq missiyasına necə peşəkarlıqla yanaşdığını da sübut edir.

Təəssüf ki, polis orqanlarının fəaliyyətində bu məqamları görməyənlər də var. Nəinki görməyənlər, reallıqları qəsdlə baş-ayaq çevirənlər var. Polisin hardasa kiçik insan qruplarına məhdudlaşdırıcı qaydalarla bağlı maarifçi tövsiyələr verməsini guya hansısa "ağır qarşıdurmanın gərgin anları" kimi təqdim edən sosial şəbəkə fəalları öz işlərindədir. İşi-gücü polisin pandemiya ilə yox, guya cəmiyyətlə qarşı-qarşıya dayandığını göstərməkdən ibarət olanlar da göründü.

Hər kəsin evində rahat oturduğu həftə sonunda polislərin küçə-bacada keşik çəkməsi, hətta yeməklərini belə ayaq üstdə yeməsi, saatlarla piyada gəzməsi sanki xalqa qarşı yönəlmiş işlər imiş… Bunları da görən, bilən təkcə bu sosial şəbəkə qəhrəmanları imiş…

Unudurlar ki, polislər koronavirusla mübarizə qaydalarını özləri yazmır, hər hansı siyasi qərarlar vermir, cəmiyyətin təhlükəsizliyi və sağlamlığı üçün müvafiq başqa orqanların hazırladığı qərarların icrasına nəzarət edir. Vəssalam…

Bu günlərdə öz siyasi ambisiyalarını, kin-küdurətini polisin üstünə yönəldənlərin niyyətlərini başa düşmək çətin deyil. Birmənalı aydındır ki, niyyətlər xoş deyil, cəmiyyətin mütləq əksəriyyətinin əleyhinədir, çünki polisin qara-qura həmlələrin hədəfinə çevrilmiş bugünkü fəaliyyətləri məhz cəmiyyətin mütləq əksəriyyətinin həyati mənafelərinə xidmət edir.

# Aydın Quliyev: "Ermənilərin öz oyunlarıdır..."

**"Mən əminəm ki, son həftələrdə İstanbulda erməni kilsəsinin qapısındakı xaçın qoparılmasında, Hrant Dinkin ailəsinin hədələnməsində, habelə, guya 13 erməni gəncinin güllələnməsini əks etdirən uydurma "youtube" filminin quraşdırılmasında məhz ermənilərin öz barmaqları var".**

Bunu SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Onun sözlərinə görə, belə düşünməyə əsaslar var:"Qardaş Türkiyənin Şərqi Aralıq və Mərmərə dənizində neft-qaz kəşfiyatı aparmaq haqqından istifadə etməsini qəbul edə bilməyən 7 ölkənin XİN başçıları videogörüş keçirərək ultimatum veriblər. Bunlar Yunanıstan, Kipr, İspaniya, İtaliya, Portuqaliya, Fransa və nə qədər təəccüblü də gəlsə, Ermənistandır".

A.Quliyev vurğulayıb ki, heç bir dənizlə və sözügedən bölgədəki neft-qaz ehtiyatları (?) ilə bağlılığı olmayan Ermənistanın XİN -i "yuyulmamış qaşıq kimi" özünü ortaya atıb:"Aralıq dənizində hələ neft-qaz tapılası, ondan Ermənistan da bəhrələnəsi, məşhur tamaşada deyildiyi kimi, "uzun haqq-hesabdır, Nazlı..." Bu arada ermənilər dünyanın diqqətini pis mənada Türkiyəyə yönəltmək üçün hər şeyə əl atmaqda hər zaman maraqlı görünürlər".

# Əbülfəz Elçibəy rus KQB casuslarını niyə himayə etdi - Sülhəddin Əkbərdən ittiham...

**Azad Demokratlar Partiyasının sədri, 1992-1993-cü illərdə Milli təhlükəsizlik nazirinin birinci müavini postunu tutmuş Sülhəddin Əkbər son müsahibəsində bir sıra maraqlı və diqqətçəkən açıqlamalar verib.**



Həmin açıqlamalar onun KQB arxivlərinin açılması, AXC rəhbərliyindəki şəxslərin bəzilərinin Rusiya xüsusi xidmət orqanlarının agenti olması və digər məsələlərlə bağlı fikirlərini əhatə edir. Sülhəddin Əkbər bildirib ki, o hakimiyyətdə yüksək post tutan şəxslərin KQB agentləri olması ilə bağlı faktları o vaxtkı prezidentə təqdim etsə də, Elçibəy arxivlərin açılmasına razılıq verməyib.

Qeyd edək ki, Sülhəddin Əkbərin ittihamları ilə bağlı Elçibəy hakimiyyətində təmsil olunan şəxslərin çoxu münasibətini açıqlayıb. Onların əksəriyyəti sabiq nazir müavininin ittihamları ilə razı olmadıqlarını bildirib. Sülhəddin Əkbərin ittihamları ilə razılaşmayanlardan biri də Azərbaycanın mərhum prezidenti Əbülfəz Elçibəyin mətbuat, məktublar və məxfi sənədlər üzrə köməkçisi, habelə həmin illərdə Dövlət Müdafiə Komitəsinin katibi postunu tutmuş Oqtay Qasımovdur. O bildirib ki, Sülhəddin Əkbər bu məsələdə konkret danışmır:"Əvvəla, ona kim imkan verməyibsə, onun adını çəkməlidir. İkincisi, arxivlərin açılmasına dair 1992-ci ilin oktyabrında Milli Məclisdə müzakirələr gedib. Arxiv və agentura şəbəkəsinin açılmasının əleyhinə çıxış edənlərdən biri də Sülhəddin bəyin özü olub. Eləcə də nazir Fəxrəddin Təhməzov arxivlərin açılmasının əleyhinə olub. Həmin vaxt Milli Məclis normativ hüquqi aktların hazırlanmasına dair qərar qəbul edib. "Azərbaycan" qəzetinin 22 oktyabr 1992-ci il tarixli nömrəsinə baxa bilərsiniz, orada Sülhəddin Əkbərin çıxışı dərc edilib".

## *Fərəc Quliyev: "Bəziləri baş verən məğlubiyyətlərdə olan bacarıqsızlıq paylarını Elçibəyin üzərinə yıxmağa çalışır"*

Elçibəy hakimiyyətinə çox yaxınlığı ilə seçilən digər şəxslərin bu məsələ ilə bağlı mövqeyi necədir?

Həmin hakimiyyətdə təmsil olunmayan, ancaq Elçibəyə xüsusi yaxınlığı ilə seçilən Azərbaycan Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin hakimiyyətdə təmsil olunmasa da, Elçibəyi daim müdafiə edib: "Elçibəyin heç vaxt kiminsə müdafiəsinə ehtiyacı olmayıb. Onun əsl qiymətini xalq verib. Hər kəs bilir ki, Elçibəy dünyasını dəyişənə qədər mən onun yanında olmuşam. Bunu hər kəs bilir. O, dünyasını dəyişəndən sonra heç kimin yanında olmamışam. Müstəqil olaraq yoluma davam etmişəm. Hərəkatçı dostlarım mənim yanımda olub və biz partiya qurmuşuq. Bu o deməkdir ki, həmin vaxt baş verən proseslərin hamısından xəbərdar olmuşam. Sülhəddin bəyin dediklərinə həmin vaxt komadada təmsil olunan şəxslərin çoxu aydınlıq gətirdi. Xüsusilə də Elçibəyin köməkçisi olmuş Oqtay Qasımovun verdiyi açıqlamalar məni tamamilə qane etdi. on vaxtlar qəribə dəb düşüb. O dövrdə ortada görünməyənlər, yaxasını kənara çəkənlər, savaşa girməyənlər həm özlərinə bəraət axtarır, həm də baş verən bəzi hadisələri adlarına çıxıb özlərini qəhrəmanlaşdırmaq istəyirlər. Tamamilə mənasız ssenarilər quraşdırıb, sonra özləri də ona inanmağa başlayırlar. Məsələn, Mehri məsələsi ilə də bağlı Sülhəddin bəyin dedikləri həqiqəti əks etdirmir.

Həmin məsələ müzakirə olunanda İsgəndər Həmidovla Rəhim Qazıyev Naxçıvana gəldi, biz orada görüşüb müzakirə aparmışıq. Elə həmin gün gözlənilmədən Pirəkəşküldə silah anbarlarından birində partlayış baş verdi və onlar geri qayıtdı.

Bizim şanlı hərəkat tariximizin üstünə toz-torpaq atmaqla onu basdırmaq mümkün deyil. Elçibəy haqqında deyilənlərin hamısı cəfəngiyatdı. Bütün ideyalar onun özündən gəlirdi. İndi Sərhəd Hərəkatını da bəziləri öz adı ilə bağlamaq istəyir. Məsələn, Nemət Pənahlı. Halbuki, Nemət Naxçıvan ərazisinə keçəndə sərhəd artıq sökülmüşdü. Bəziləri baş verən məğlubiyyətlərdə olan bacarıqsızlıq paylarını Elçibəyin üzərinə yıxmağa çalışır. Tarixi keçmişi qurdalamaqdan daha çox, ölkənin gələcəyini düşünmək lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Ermənistan tərəfi Azərbaycanda gedən bütün prosesləri izləyir. Hansısa bir çatışmayan cəhəti, mənfi halı o dəqiqə erməni mediası əlində bayraq edərək ölkəmizə qarşı təbliğat məqsədi üçün istifadə edir. Erməni mediasının olduqca həssas yanaşdığı məsələlərdən biri də Qarabağ münaqişəsinin həlli ilə bağlı səslənən fikirlərdir.**

# Erməni mediası bəzi partiya funksionerlərimizin, deputatlarımızın Qarabağ fikirlərini Azərbaycan əleyhinə çevirir - "Azərbaycan müharibədən çəkinir"...




## *Elşən Manafov: "Bəzi millət vəkilləri, siyasətçilər Qarabağla bağlı fikirlərində diqqətli olmalıdırlar"*

Müşahidələr göstərir ki, Azərbaycanda bəzi deputatların, partiya rəhbərlərinin, funksionerlərin müəyyən məsuliyyətsiz açıqlamalarını Ermənistan mediası götürərək bundan öz məqsədləri üçün istifadə edir. Müxalifətdə, hətta iqtidarda da belə açıqlamalarla çıxış edənlər var. Söhbət sözügedən siyasilərin antimüharibə xarakterli məsuliyyətsiz fikirlərindən gedir. Xüsusən də erməni mediası Qarabağla bağlı verilən bu kimi açıqlamalardan daha çox istifadə edir. Məsələ ondadır ki, erməni mətbuatı həmin açıqlamalardan istifadə edərək belə rəy yaratmağa çalışır ki, guya Azərbaycan cəmiyyəti Qarabağ məsələsinin güc yolu ilə həllini istəmir. Səbəbini müharibədən qorxmaları ilə əlaqələndirirlər. Guya müharibə olacağı təqdirdə Azərbaycanın daha ağır məğlubiyyətə düçar ola biləcəyi ilə bağlı həmin o məsuliyyətsiz sitatlardan istifadə edirlər.

Maraqlıdır, Azərbaycanda Qarabağla bağlı bu cür məsuliyyətsiz yanaşmalarla çıxış edənlər, belə bəyanatlar verənlər bunun nəticəsi haqqında düşünürlərmi?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, belə fikirlərlə çıxış edən siyasilər bunun nəticələri ilə bağlı düşünsəydilər, bəlkə də bu cür açıqlamalarla çıxış etməzdilər: "Təəssüflər olsun ki, bəziləri bütün bunların fərqində olmadığı üçün, belə fikirlər səsləndirirlər. Nəticədə düşmən tərəfi bundan böyük məharətlə istifadə edir. Nəzərə almaq lazımdır ki, bu il separatçı qurumda keçirilən "seçkilər", Şuşada təşkil olunan "tədbirlər" Azərbaycanda hiddətlə qarşılandı. Hansı ki, Ermənistan bu kimi təxribatlara əl ataraq Azərbaycanı provokasiyaya çəkmək istəyirdi. Ermənistan mətbuatı hər vasitə ilə belə bir rəy yaratmağa çalışır ki, guya Azərbaycan hərbi əməliyyatlara cəsarət etməz. Hansı ki, Azərbaycan 4 il əvvəl məlum tabunu sındırdı. Aprel döyüşləri göstərdi ki, sülh danışıqları nəticə verməsə, müharibə qaçılmazdır. Sözügedən döyüşlər Azərbaycan Ordusunun gücünü ortaya qoydu. Nəzərə almaq lazımdır ki, aprel döyüşləri Ermənistanın siyasi elitasında parçalanmaya səbəb oldu. Ona görə də bəzi millət vəkilləri, siyasətçilər Qarabağla bağlı fikirlərində diqqətli olmalıdırlar. Nəzərə almalıdırlar ki, düşmən tərəfi onların bu kimi antimüharibə xarakterli məsuliyyətsiz fikirlərindən çox böyük məharətlə öz mənafelərinə uyğun istifadə edir. Belə fikirlər Azərbaycan cəmiyyətində çaşqınlıq yaratmaqla yanaşı, bundan erməni mediasının öz mənafeyi üçün istifadə etməsinə əlverişli şərait yaradır.

*"...bundan erməni mediasının öz mənafeyi üçün istifadə etməsinə əlverişli şərait yaradır"*

**Azərbaycan müharibə vəziyyətində olduğu üçün, bu kimi məsələlərə son dərəcə həssas yanaşmaq lazımdır. Müharibə olmasa da, hər halda, cəmiyyəti buna kökləmək lazımdır. Yoxsa, antimüharibə ovqatına köklənmiş fikirlərin səslənməsi doğru deyil".**

***Vidadi ORDAHALLI***

**Paşinyanın siqaret qaçaqmalçılığı növbəti dəfə ifşa edildi. Belə ki, Rusiyanın Voronej şəhərinin sərhədçiləri 16 ton idxal olunan siqareti ələ keçiriblər. İrəvandan Voronejə gələn yük təyyarəsinin göyərtəsində nəhəng saxta tütün dəsti aşkarlanıb. Etiketlərə görə bütün siqaretlər Ermənistanda istehsal edilib.**

# Paşinyanın və daha 17 erməni məmurun adı beynəlxalq siqaret qaçaqmalçılığında...



## *Məhəmməd Əsədullazadə: "Qaçaqmalçılıq məsələsi artıq çox ciddi siyasi böhrana yol aça bilər"*

Məhsulda tütün məmulatları üçün tələb olunan aksiz markaları və xüsusi nişanlar olmayıb. Yeri gəlmişkən, bu, son bir ayda Ermənistandan gətirilən ikinci böyük siqaret yüküdür. Aprelin sonlarında eyni siqaret Krasnodar sərhədçiləri tərəfindən ələ keçirildi.

Ermənistanın özündə saxta ticarət səbəbindən bütöv bir qalmaqal yaranıb. Ölkənin Vatikandakı keçmiş səfiri Mikael Minasyan hazırkı Baş nazir Nikol Paşinyanı bu qanunsuz işi təşkil etməkdə ittiham edib. Paşinyan isə, öz növbəsində, rəqibini təhlükəsizlik qüvvələri ilə hədələyib.

Bu arada Minasyanın sözlərinə görə, Voronej epizodu çoxlarından biridir. Siqaretin Rusiyaya daşınması isə iki ildir davam edir. Mütəxəssislər Voronejdə ələ keçirilən bütün siqaretlərin satış qiymətini 70 milyon rubl dəyərində qiymətləndiriblər.

Ermənistanda çıxan "İrates" qəzeti yazır ki, Rusiyanın hüquq-mühafizə orqanları göndərilən siqaret qaçaqmalçılığına dair cinayət işini araşdırırlar. Qəzetin yazdığına görə, koronavirus pandemiyası ilə bağlı mövcud problemlər və korrupsiya sövdələşməsi Ermənistanın Baş naziri Nikol Paşinyanın ətrafında xaos yaradıb: "Ermənistanda siqaret qaçaqmalçılığı ilə bağlı məsələni tez ört-basdır etməyə çalışsalar da, qaçaqmal siqaret dolu təyyarəni müsadirə etmiş Rusiya barəsində bunu demək çətindir".

Bildirilib ki, federasiyanın təhlükəsizlik xidmətinin etibarlı mənbələri bu barədə diqqətəlayiq məlumatı verib: "Qaçaqmal siqaret işi Rusiya hüquq-mühafizə orqanlarının diqqət mərkəzindədir. Dərin və hərtərəfli araşdırma aparılır. Bu işdə Nikol Paşinyanla yanaşı, daha 17 nəfərin adı hallanır".

Qəzetin "bunu niyə ətraflı danışmırlar" sualına cavab olaraq vurğulanıb: "Hər şeyin vaxtı var, körpələr 9 aydan sonra dünyaya gəlir. Rusiya üçün Nikol Paşinyan deyil, Ermənistan tərəfdaş dövlət və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkədir. Paşinyanın KTMT-yə qarşı atdığı addımları, Rusiyanı hansı vəziyyətə qoyduğunu başa düşməməsi öz problemidir".

"Ermənistandan siqaret qaçaqmalçılığının gizlədilməsi üçün bir adam Rusiyaya göndərilib" sualına mənbə cavab olaraq deyib: "Getdi, ancaq heç nə edə bilmədi".

Belə görünür, qanunsuz brilyant, siqaret alveri Paşinyanın axırına çıxacaq. Məsələnin ciddiləşməsi ona yaxşı sonluq vəd etmir.

*"...ona qarşı ciddi təzyiqlər olacaq"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin fikrincə, qaçaqmalçılıq məsələsi artıq böhrana yol açır: "Ermənistan Baş naziri haqqında qaçaqmalçılıq məsələsi artıq çox ciddi siyasi böhrana yol aça bilər. Ermənistanın Vatikanda keçmiş səfiri Minasyan bununla bağlı hər gün yeni iddialar səsləndirir. Ancaq Paşinyan bütün bunlara açıqlama vermir.

Çunki bu ona qarşı yeni iddialara yol açacaq və araşdırma başlayacaq. Siqaret, silah, brilyant alveri qaçaqmalçılığı erməni rəsmiləri üçün səciyyəvi xüsusiyyətlərdir. Onlar dövlətin imkanlarından istifadə edib bununla öz şəxsi bizneslərini qururlar. Hesab edirəm ki, Rusiyada Paşinyanın bu hərəkətləri tam sübut olunsa, ona qarşı ciddi təzyiqlər olacaq. Fikrimcə, Rusiyada bu qaçaqmalçılıq məsələsinə aydınlıq gətiriləcək. Deməyim odur ki, Paşinyana əsl sürpriz qabaqdadır. Əlbəttə, Paşinyanın bunu etməsi heç də təəccüblü deyil. Ona görə ki, əlavə gəlir yeri yox və yalnız bu cinayət yolları ilə qazanır. Bu, Ermənistanda siyasi böhrana yol aça bilər".

***Vidadi ORDAHALLI***

**Cənubi Qafqaz ölkələri arasında bu gün yalnız Ermənistanda koronavirus pandemiyasının səhiyyə sistemini çökdürdüyü müşahidə edilir. Hazırda Ermənistan Cənubi Qafqazda koronavirusla bağlı ən dramatik vəziyyətin hökm sürdüyü ölkədir. Əslində, dünya miqyasında da Ermənistan ən pis durumda olanlar sırasındadır.**

# Koronavirus Ermənistanı tamamilə çökdürür, Paşinyanın isə axırına çıxır...




Belə ki, bir milyon əhalinin payına düşən koronavirusa yoluxma hallarının sayına görə Ermənistan dünyada 22-ci yeri tutur. Halbuki, bir milyon əhalinin payına düşən ölüm hallarının sayına görə Ermənistan iyunun 5-də dünyada 37-ci yeri tuturdu. Amma bu gedişlə, virusdan həyatını itirənlərin sayının sürətli artımının Ermənistanı daha pis sıralara gətirəcəyi şübhə doğurmur. Özü də bu hesablamalar yalnız rəsmi rəqəmlər əsasında aparılib.

Rəsmi rəqəmlərə əsasən, ölkədə virusa yoluxanların sayı 15 minə çatır. Bugünədək 200 nəfərdən çox insan pandemiyanın qurbanı olub. Amma bu rəqəmlər, əslində reallığı tam əks etdirmir. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan özü də etiraf edir. O etiraf edir ki, Ermənistanda yeni növ koronavirusa yoluxanların real sayı 100 min nəfərdən çoxdur. Onun sözlərinə görə, yoluxma və ölümlər, eləcə də aparılan datoloji analizlərin nəticələri göstərir ki, əslində Ermənistanda COVID-19 virusuna yoluxanların real sayı 100 min nəfəri keçib. Yeri gəlmişkən qeyd edək ki, Paşinyan fövqəladə vəziyyət üzrə komendaturanın son iclasından sonra ölkəsində vəziyyətin "cəhənnəmə çevrildiyini" açıqlayıb. Baş nazir ölkədə koronavirusa yoluxma hallarının kəskin artmasına görə səhiyyə sisteminin çökdüyünü, yeni xəstələri qəbul edə bilmədiyini, yüzlərlə xəstənin xəstəxanaya yerləşdirilmək üçün növbə gözlədiyini deyib. Onun sözlərinə görə, situasiya kritik həddi keçib və ölkə "cəhənnəmə çevrilib". Paşinyana görə, virusun belə sürətlə yayılmasının səbəbi insanların təhlükəyə məhəl qoymaması və laqeydliyidir. Onun fikrincə, insanların davranışı dəyişmədən və epidemiya əleyhinə tədbirlərə sərt riayət olunmadan vəziyyəti dəyişmək mümkün olmayacaq:"Ermənistanda koronavirusa yoluxmuş 200-dək insan xəstəxanada müalicə olunmaq üçün növbə gözləyir. İki nəfər isə reanimasiyada yer olmaması səbəbindən ölüb. Ermənistanda səhiyyə sistemi o qədər yüklənib ki, xəstəxanalar artıq pasiyentləri qəbul edə bilmir. Acı həqiqətdir ki, təcili tibbi yardımın gecikməsi səbəbindən insanlar koronavirusdan dünyasını dəyişir. Bütün ciddi səylərimizə baxmayaraq, ölkə çox acınacaqlı vəziyyətə düşüb".

Elə Rusiyanın "Nezavisimaya qazeta" mətbu orqanı da yazır ki, koronavirus Ermənistanı fəlakət həddinə çatdırıb. Qeyd edilir ki, Ermənistanda koronavirusa yoluxanların sayının dəhşətli dərəcədə artmasına görə baş nazir Nikol Paşinyanı ittiham edirlər:"Ermənistan parlamentində təmsil olunmuş müxalifət respublikada epidemiya ilə bağlı çox mürəkkəb vəziyyət yaranmasının və yaxşılaşma meyllərinin olmamasının səbəbi barədə hökumətdən izahat tələb edir. Parlamentdə təmsil olunmayan müxalifət isə bu vəziyyətə görə şəxsən Nikol Paşinyanı və onun hökumətini ittiham edir. Bu Nazirlər Kabinetində əvvəllər işləyənlərin bir qismi də Paşinyanın istefasını tələb edənlərə qoşulub. Özü yüngül formada koronavirusa yoluxmuş baş nazir isə yaranmış təhlükəli vəziyyətə görə məsuliyyəti əhalinin üzərinə yıxır. Onun fikrincə, əhali mövcud vəziyyətə qeyri-ciddi yanaşır və təhlükəsizlik normalarını pozur. Səhiyyə naziri Arsen Torosyan da kəskin tənqidə məruz qalıb. Müxalifət onu epidemiya siyasətini tamamilə iflasa uğratmaqda, səhvlərini etiraf etməyi və onları düzəltməyi bacarmamaqda ittiham edir. Torosyan özü bu günlərdə Gürcüstanın ünvanına koronavirusla bağlı qəribə bir bəyanat verib ki, bu bəyanat da beynəlxalq qalmaqala səbəb olub və nazir qonşu ölkədən üzr istəməyə məcbur olub. Bu dəfə isə Torosyan müxalifətçi deputatları təqsirləndirib. Onun fikrincə, məhz həmin deputatlar fövqəladə vəziyyət rejiminin uzadılmasına, yoluxanlarla təmasda olan şəxslərin aşkar edilməsi və maska taxmaq sistemi tətbiq edilməsinə mane olub, nəqliyyatın və müəssisələrin işinin bərpa olunmasını tələb ediblər. Nazir deyib: "Ermənistanın zəif inkişaf etmiş, onilliklər boyu kifayət qədər maliyyələşdirilməmiş səhiyyə sistemi, bununla belə, varlı ölkələrlə müqayisədə yüz qat yaxşı vəziyyətdə olub". Bu durumda Paşinyan xalqa müraciət edərək vəziyyətin pisləşdiyini bildirib. Baş nazirin sözlərinə görə, tibbi müəssisələr həddən artıq yüklənib və tibbi yardıma ehtiyacı olan insanları qəbul edə bilmir. Təbii ki, bunlar Paşinyan üçün yaxşı nəticələnməyəcək". Elə Rusiyanın "İzvestiya" qəzeti də qeyd edi rki, Paşinyan hökumətinin reytinqi karantinə qədər də düşürdü, indi də düşür.

Politoloq Artur Atayev məsələ ilə bağlı "İzvestiya"ya deyib: "Ermənistan koronavirusa üzrə rekordçudur. Hazırda Ermənistan koronavirusa yoluxanların və bu səbəbdən ölənlərin sayı üzrə Zaqafqaziyada birinci yeri tutur". Qəzet daha sonra yazır ki, ölkədə infeksiyanın yayılmasına qarşı mübarizə üzrə radikal tədbirlər görülməsinə baxmayaraq, nə məmurlar məhdudiyyətlərə riayət edirdi, nə də sakinlər:"Məmurlar özləri səhlənkar münasibətə təhrik edirdilər. Səhiyyə naziri Arsen Torosyan yazın əvvəlində keçirdiyi mətbuat konfransında bu tədbirə maska taxmış vəziyyətdə gəlmiş jurnalistləri lağa qoyurdu. Torosyan bildirirdi ki, koronavirusu təhlükəli hesab etmir. O deyirdi:"Spesifik dərmanlar lazım deyil. Ümumiyyətlə, onu adi qrip kimi müalicə edirlər". Başqa siyasətçilər də məhdudlaşdırıcı tədbirlərə məhəl qoymurdular. Məsələn, ötən ay Ermənistan parlamentinin deputatları arasında vuruşmanın videosu şəbəkədə geniş yayılmışdı. Onlar kommunal ödənişlərlə bağlı fikir ayrılıqlarına görə əlbəyaxa oldular. Aydındır ki, dalaşqan deputatlar sosial məsafəyə riayət etmirdilər. Mayın 21-də "Dağlıq Qarabağ Respublikası"nın yeni "prezidenti"nin inauqurasiyasından sonra isə daha bir qalmaqal qopdu. Sosial şəbəkələrdə yayılmış fotoşəkillərdə görünür ki, Ermənistan və "DQR" hökumətlərinin üzvləri sosial məsafəyə və qoruyucu maskalara məhəl qoymurlar. Bütün bunların nəticəsində vətəndaşlar arasında da karantinə sərin münasibət yarandı. Politoloq Artur Atayev vəziyyəti şərh edərək bildirir ki, Ermənistan hakimiyyətinin inamsız hərəkətləri etiraz əhval-ruhiyyəsinin güclənməsinə gətirib çıxara bilər:

**"Bunun hansı nəticələrə gətirib çıxaracağı məlum deyil. Yaxın gələcəkdə etiraz aksiyaları başlanmasını istisna etmirəm. Bir sıra siyasi qüvvələr, ilk növbədə vaxtilə Paşinyanın silahdaşları olmuş, lakin indiki hakimiyyətdə özlərinə yer tapa bilməmiş adamlar bu vəziyyətdən istifadə etməyə hazırdır. Ambisiyalı gənclər tezliklə vəziyyəti daha da qızışdıra bilərlər". Elə bir vaxtlar Paşinyana dəstək verən müxalif qüvvələr də bu durumda onun hakimiyyətdən getməsini vacib sayır.**

***Nahid SALAYEV***

# Ermənistanda faşistlərdən sonra ASALA terrorçularını da himayə etməyə başlayıblar...

**Ermənistanda koronavirus pandemiyasının vüsət aldığı məqamda sosial şəbəkələrdə İrəvanda çəkilən foto yayımlanıb. Fotoda başına ASALA terror təşkilatının emblemi olan maskalar taxmış 2 şəxsin polis tərəfindən saxlandığı an əks olunub. Bəzi erməni sosial şəbəkə istifadəçiləri terror qruplaşmasının yenidən fəaliyyətə başladığını yazıblar.**




Ermənistanın Azadlığı üçün Gizli Erməni Ordusu (ASALA) 1975-ci ildə Livanın Beyrut şəhərində yaradılıb. Qruplaşma dünyanın müxtəlif ölkələrində 20-dən artıq türk diplomatını qətlə yetirib. 1990-cı illərin əvvəllərindən qruplaşma fəaliyyətini dayandırıb.

Maraqlıdır, bir tərəfdən Ermənistanın baş naziri dünyaya yalvarır ki, koronavirusla bağlı onlara yardım etsinlər, digər tərəfdən isə İrəvan küçələrində ASALA-nın xortladığını görürük.

Ermənistanın faşizmə bəslədiyi açıq sevgidən sonra indi də açıq şəkildə ASALA-nı təbliğ etməsinə hansı adı vermək olar?

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu

***Samir Adıgözəlli:** "Bu faktı biz dünyanın lazımi qurumlarına təqdim etməliyik ki, həmin ölkənin terrorçu mahiyyətindən bir daha xəbərdar olsunlar"*

addımında təəccüblü nəsə görümür:"Çünki həmin ölkə mahiyyət etibarı ilə faşizm ideologiyası ilə idarə olunur. Müstəqillikdən bu tərəfə onların dövlətinin başına gələnlərin çoxunun keçmişi terrorçu olub. Köçəryan, Serj Sarkisyan kimi adamlara ən layiqli qiyməti elə öz qurduqları dövlət verir. Biri həbsdədir, digəri barəsində cinayət işi qaldırılıb. Ermənistan heç vaxt ASALA-ya olan rəğbətini gizlətməyib. Həmin terror təşkilatının üzvləri gəlib Qarabağdakı müharibədə iştirak ediblər. Beləlıri gəbərəndə, Ermənistan hakimiyyəti onları qəhrəman kimi təbliğ edib. Ermənistan dünyada nadir ölkələrdəndir ki, faşist Qaregin Njdeyə rəsmi olaraq heykəl ucaldıb və onu "milli qəhrəman" statusuna yüksəldib. Njdenin faşistlərlə əlaqəsi, 25 minlik erməni faşist legionunun yaradılmasında rolu, bütün keçmiş sovet xalqlarından formalaşan sovet ordusuna qarşı döyüşməsi və yəhudilərə qarşı soyqırımda aktiv iştirakı danılmazdır və sənədlərlə artıq sübut olunub. Qaregin Njde həm də 1918-1921-ci illərdə Zəngəzur mahalında yerli azərbaycanlılara qarşı vəhşi cinayətlərin törədilməsinə başçılıq edib. Belə bir faşist cinayətkara Ermənistan hökuməti tərəfindən heykəl qoyulması ilk növbədə Ermənistanın xislətindən, faşist ideyalarının daşıyıcısı olmasından irəli gəlir. Çünki məhz onlar eyni faşist metodları ilə Dağlıq Qarabağda azərbaycanlıların qətliamının müəllifləri idi".

Təşkilat rəhbərinin sözlərinə görə, Prezident İlham Əliyev Ermənistanın faşizmə bəslədiyi rəğbəti tam sübuta yetirib:"Ermənistanın indiki hökümətini Njdenin heykəlinin götürülməsinə çağırması bu qara ləkənin təmizlənməsinə çağırış idi. Azərbaycan qonşuluğunda faşizm, terror ideyalarının çiçəklənməsinə qarşıdır və bunu regionun xalqları, bütün bəşəriyyət üçün ən böyük təhlükə kimi görür. Ermənistanda faşizmin ardınca indi də ASALA-nın meydanlarda görünməsi təsadüfi sayıla bilməz. Bununla Ermənistan dünyaya müəyyən mesajlar verir ki, acından ölən ölkəyə yardım olunmasa, orada belə cərəyanlar baş qaldıra bilər. Bu faktı biz dünyanın lazımi qurumlarına təqdim etməliyik ki, həmin ölkənin terrorçu mahiyyətindən bir daha xəbərdar olsunlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus müstəvisində Ermənistanda nə baş verir - Paşinyanın yeni oyunu, ya yarıtmaz siyasətin fəsadları...

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkədə koronavirus daşıyıcılarının sayının 100 mini keçə biləcəyini açıqlayıb. O deyib ki, bütün səylərimizə baxmayaraq, Ermənistan çox acınacaqlı vəziyyətə düşüb. Onun sözlərinə görə, koronavirusa yoluxmuş 200-ə yaxın insan xəstəxanada müalicə almaq üçün növbə gözləyir:**



"Biz kritik vəziyyətə gəldik və cəhənnəmdə addımlayırıq. Səhiyyə sistemi o qədər yüklənib ki, xəstəxanalar artıq xəstələri qəbul edə bilmirlər. Acı həqiqətdir ki, təcili tibbi yardımın gecikməsi səbəbindən insanlar koronavirusdan dünyasını dəyişir".

Paşinyan "Facebook" səhifəsində koronavirusa yoluxma halları və xəstələnmə proqnozları ilə bağlı cədvəl paylaşıb: "Bu datoloji analiz göstərir ki, hazırda Ermənistanda 100 mindən çox daşıyıcı var. Bütün səylərimizə baxmayaraq, Ermənistan çox acınacaqlı vəziyyətə düşüb".

Paşinyan onu da qeyd edib ki, komendantın iclasında lokdaunun (evdən bayıra çıxmamaq) elan olunması ehtimalı müzakirə edilib: "Ancaq belə bir qərar istənilən nəticəyə səbəb olmayacaq. Hər kəsin antiepidemioloji tədbirlərə ciddi şəkildə riayət etməsi və maskalar tax-

***Fikrət Sadıqov:** "...bunun kökündə Paşinyanın uğursuz idarəçilik siyasəti dayanır"*

masına qarşı keçirilən kampaniyanın əleyhinə çıxmaq lazımdır".

Onu da qeyd edək ki, ən son məlumata görə, Ermənistanda koronavirusa yoluxanların sayı 13 325 nəfərə, xəstəlikdən ölənlərin sayı isə 211 nəfərə açtıb.

Göründüyü kimi, Ermənistanda pandemiya ilə bağlı çox acınacaqlı bir vəziyyət yaranıb. Artıq Paşinyan virusla bacara bilmədiklərini, bir növ, etiraf edir. Bütün hallarda, bu, Paşinyanın yeni oyunudur, yoxsa son iki ildə onun rəhbərliyilə həyata keçirilən uğursuz siyasətin acı fəsadları?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, pandemiya ilə bağlı vəziyyət Ermənistanda həqiqətən kritikdir və bunun kökündə Paşinyanın uğursuz idarəçilik siyasəti dayanır: "Hesab edirəm ki, bu baxımdan Paşinyanın "cəhənnəmdə addımlayırıq" ifadəsi səmimi bir etirafdır. Çünki onlar artıq cəhənnəmdə olduqlarını etiraf edirlərsə, deməli, onların vəziyyəti olduqca gərgindir. Burada söhbət təkcə insanların virusa yoluxmasından getmir. Dünyanın bir sıra ölkələrində koronavirusa yoluxanlar çoxdur. Söhbət əsas ondan gedir ki, koronavirusla bağlı məsələdə çevik addımlar atmaq lazımdır. Virusla mübarizəni təşkil etmək lazımdır. Tibbi preparatlar, personal, müasir avadanlıqlarla təchiz olunmuş xüsusi xəstəxanalar olmalıdır. Reallıq ondan ibarətdir ki, sözügedən məsələdə Paşinyanın komandası acizdir. Faktiki olaraq, Ermənistan siyasi rəhbərliyi problemin öhdəsindən gələ bilmir. Əvvəl ölkənin Səhiyyə naziri problemin öhdəsindən gələ bilmədiklərini bəyan etdi, indi də Paşinyan bunu etiraf etmək məcburiyyətində qalıb. Paşinyan dedi ki, belə getsə, xəstəxanalarda heç yer tapılmayacaq.

*"Koronavirusun Ermənistanda yaxın günlərdə daha da yayılacağı qaçılmazdır"*

Ermənistan Baş naziri bu kimi məsələlərlə bağlı konkret tədbirlər görmək əvəzinə, populist vədlərlə ictimaiyyətin başını aldatdı. Anlamaq istəmir ki, boşboğazlıq etməklə problem həll olunmur. Hesab edirəm ki, Ermənistanda pandemiya ilə bağlı vəziyyət həqiqətən kritikdir. Çox güman ki, koronavirusun ölkədə yaxın günlərdə daha da yayılacağı qaçılmazdır".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan diplomatik müstəvidə Ermənistana daha ağır zərbələr vurur - İrəvanda "hökuməti 100% dəyişmək lazımdır" çağırışları gündəmdə...

**Ermənistan diplomatiyasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı getdikcə daha zəif duruma düşməsi, Azərbaycanın gedişləri qarşısında aciz durumda olmasını indi düşmən ölkənin özündə də etiraf edənlərin sayı artır. Bu durumda Ermənistanda tənqid hədəfinə çevrilən başlıca məqamlardan biri Rusiyanın incik duruma salınmasıdır.**

Erməni mediası yazır ki, Moskva yaranmış vəziyyətdə Azərbaycana dəstəyi artırır və bu da Ermənistanın Bakının diplomatik hücumları qarşısında daha aciz vəziyyətə düşməsi deməkdir. Bildirilir ki, belə vəziyyətdə Moskvanın Qarabağ münaqişəsinin həllinin uzanmasından narazılıq ifadə etməsi də İrəvanın lehinə deyil. Xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Kremlin konfliktin çözümünün uzanmasından narahat olduğunu bildirib: "Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlıdır. Amma Qarabağ probleminin həlli çox uzandı". Yaranmış durum və Rusiyanın mövqeyini erməni tərəfi İrəvan diplomatiyasının acizliyi ilə izah edir. "Çiçəklənən Ermənistan" Partiyasının sədri Hagik Tsarukyan bu xüsusda bildirir: "Ermənistan diplomatiya sahəsində də uduzur. Halbuki, hakimiyyətə xalqın gözləntilərini reallaşdırmaq üçün zaman, eləcə də imkan verilmişdi. Biz bu dəyişikliklərə dəstək vermişik, bu arzuları reallaşdırmaq istəmişik. Əlbəttə, xalqın gözləntilərini reallaşdırmaq üçün imkan var idi. Hakimiyyətin strukturu, proqramı, tərkibi müəyyənləşəndə dedim ki, belə tərkiblə bu vədləri və gözləntiləri reallaşdırmaq mümkün deyil. Əsas problem odur ki, bu tərkibdə olan insanların heç bir təcrübəsi yoxdur. İl yarım əvvəl demişdim ki, xalq, dövlət təcrübə məkanı deyil. Burada peşəkar nəticələr göstərəcək təcrübəli insanlar olmalıdır. Əminliklə deyirəm ki, hökuməti 100% dəyişmək lazımdır, çünki bütün sferalar fiaskoya məruz qalıb. İqtisadiyyat, siyasət, diplomatiya sahəsində vəziyyət ağırlaşır. Rusiya ilə pisləşən münasibətlərin ağır nəticələri olacaq".

Ermənistan Ali Sovetinin sabiq deputatı Azat Arşakyan isə bildirib ki, Moskva siyasətini dəyişməsə, Ermənistan Rusiya ilə münasibətlərə yenidən baxmalıdır:"Siyasi qərar qəbul edilməli və Ermənistan öz vassal statusundan imtina etməlidir". Onun sözlərinə görə, siyasi təzyiq nəticəsində imzalanmış bütün müqavilələr yenidən nəzərdən keçirilməlidir:"Vəziyyəti dəyişməliyik, Ermənistan dövlətdir, Ermənistan vətəndaşları Rusiya vətəndaşları üçün Rusiya olduğu qədər hörmətli vətənə sahibdirlər. Yəni biz nəinki 1991-ci ildə özümüzü müəyyənləşdirmişik, həm də Rusiya ilə bərabər olmuşuq. Bu problem qarşıya qoyulmalıdır. Əks təqdirdə, əgər onlar bizim tərəfdaş olmağımıza razı deyillərsə, beynəlxalq məhkəmələrə müraciət etmək və rus əmlakını - qaz kəmərini, dəmir yolunu, hərbi bazanı milliləşdirmək lazımdır. Bunun nəticələri ağır olacaq, amma buna gedə bildiyimizi göstərməliyik". Lakin "Qraparak" nəşri yazır ki, hadisələr Azat Arşakyanın dediyi kimi olarsa, Rusiya ilk zərbəni Ermənistana Qarabağ üzərindən vuracaq:"Ermənistan hakimiyyətinin cəsur davranış tərzi artıq absurd həddə çatıb. Hakimiyyət stukturları insan həyatının bütün sahələrində fəaliyyət göstərir. Bu, həyatımızın bütün sahələrinin Ermənistan hakimiyyətinin səhv hesablamalara və ağrılara söykənən hərəkətlərindən əziyyət çəkmələri deməkdir. Bu gün Ermənistan üçün həyati əhəmiyyət daşıyan əvəzolunmaz sahələrdən birinin faciəli vəziyyəti barədə danışacağıq - xarici siyasətdən. Çətin ki, bu gün kimsə Xarici İşlər Nazirliyinin ölkənin həyatındakı rolunu yüksək qiymətləndirə bilməsin. Digər tərəfdən, bu nazirliyi tənqid etmək bir növ nankorluqdur, çünki Xarici İşlər Nazirliyini və nazirini tənqid etsəniz, dövləti tənqid etmiş olarsınız və bu, yaxşı göstərici deyil. Hətta Xarici İşlər Nazirliyinin mətbuat katibini tənqid etmək də qeyri-adi sayılır, çünki digər sözçülərdən fərqli olaraq, bu sözcu başqa bir şəxs tərəfindən təcəssüm etdirilən həmin xarici işlər naziri və Nazirliyindən başqa birisi deyil. Ancaq deməliyik ki, bu gün diplomatiya sahəsində ən aşağı səviyyədə olan erməni diplomatiyası, ya da Ermənistanın "mənim addımçılarım" hakimiyyətinin əlindən saxtalaşdırılmayıb, yəni ya mövcud deyil, ya da varlığını yalnız bayramdan bayrama xatırladır. Xarici siyasətin Xarici İşlər Nazirliyinin inhisarında olmadığı aydındır, lakin Xarici İşlər Nazirliyinin bu istiqamətdə hökumətin memarı və xarici siyasətin inkişafında əsas rol oynadığı aydındır.

Xarici İşlər Nazirliyi sadəcə öz funksiyalarını yerinə yetirməyə qadir olmayan kifayət qədər yorğun bir qurumdur. Xarici işlər naziri Zöhrab Mnatsakanyan zaman-zaman Azərbaycan XİN rəhbəri ilə görüşür, bu da üçüncü tərəflər bunu təşkil etdiyi halda baş tutur. Təsəvvür edin ki, Məmmədyarovla bu görüşlər xarici işlər naziri və Nazirliyi üçün əsl bayramdır. Qalan vaxt Mnatsakanyan kimin daha uzun müddət siyasi həyatdan uzaq olacağı sahəsində Armen Sarkisyanla rəqabət aparır. Xarici İşlər Nazirliyi necədirsə, onun mətbuat katibi də eyni şəkildədir.

Kimsə mənə izah edə bilərmi, necə olur ki, Zaxarova bütün Rusiya mediasını özü arxasınca sürükləyib aparır, Ermənistanın mətbuat katibi olan xanım isə Zöhrab Mnatsakanyan və müavinləri ətrafında keçilməz qalalar tikərək mətbuatdan qorunmaqla məşğuldur. Fərqlər aydın deyilmi? Azərbaycan prezidenti İlham Əliyev Qarabağ məsələsini güc yolu ilə həll edə biləcəyini təkrarladıqda Mnatsakanyan nə etməli idi? İlham Əliyevin açıqlamasına hazırladığı cavab mətnini Nikol Paşinyanın qəbuluna gətirməli və məruzə etməli idi.

Paşinyan, koronavirusla məşğul olmasına baxmayaraq, hesab olunur ki, Azərbaycana cavab verməyə vaxt tapardı və ya heç olmasa, "cənab Mnatsakanyan, siz oxuyun" deyərdi. Ancaq yox, məlum oldu ki, nə Paşinyan, nə də Mnatsakanyanın Azərbaycana deyəcəyi bir şey var. Mikayıl Arutyunyan (işğal altında olan Qarabağdakı qondarma qurumun "rəhbəri") vəziyyəti xilas etməyə çalışdı, amma hamımız başa düşürük ki, onun cavabı Azərbaycan və Minsk Qrupu həmsədrləri üçün əhəmiyyətli deyil.

Bu müddət ərzində Mnatsakanyan Paşinyanın qulağına pıçıldaya və onu koronavirusla, xüsusən epidemiologiya ilə mübarizəmin, hər gün maska taxmaq və ya əllərini dezinfeksiya etmək barədə danışmağın baş nazirin prioriteti olmadığına inandıra bilərdimi? Bunu, hörmətli şef, birbaşa manеə törətdiyiniz tibb işçiləri və ya mütəxəssisləri də edə bilər. Bilirəm ki, Mnatsakanyanın belə bir işi görmək üçün cəsarəti olmalıdır, amma bunu belə qoymaq da düzgün deyil. Sıfır xarici siyasət, xüsusən də qonşularımızın əhatəsi kontekstində, şübhəsiz ki, problemlərdən yayınmaq üçün ən yaxşı seçim deyil. Bu durumda Azərbaycanın diplomatik hücumlarının artımı təbiidir. İndi buna Rusiyanın da dəstək verməsi vəziyyəti daha da pisləşdirir. Bu durumda Qarabağ məsələsində Ermənistanı heç də məmnun etməyən hallar görmək olar".

Elə erməni ekspert Edvard Sanamyan da vurğulayır ki, Azərbaycan geosiyasi müstəvidə daha uğurlu manevrlər edərək Rusiyanın ardınca ABŞ-ı da öz yanına çəkir. Onun sözlərinə görə, Rusiyadan sonra Azərbaycana ABŞ tərəfindən də dəstək artsa, Qarabağ məsələsində İrəvan çox çətin duruma düşəcək:"İnqilabdan sonra bizi Avrasiya bataqlığına daha güclü bağladılar və kiçicik bir müqavimət göstərmədən onda batırıq. Məsələn, Avrasiya İqtisadi Birliyi və KTMT Rusiya ilə münasibətlərdə kolonializmi daha da gücləndirir. Ermənistanın Kremldən asılılığına son qoymaq şüarı ilə meydana atılan Paşinyana camaat inandı və istədiyi kresloya doğru irəliləməkdə ona dəstək oldu. Ancaq indi baş nazir Rusiya ilə də münasibətləti korlayıb. ABŞ-la da əlaqələr pisləşir. Hakimiyyət bunun Qarabağ münaqişəsinə necə təsir edəcəyini bilirmi?". Bu qeyd edilənlərdən bir daha bəlli olur ki, İrəvan bu gün nə ABŞ-da, nə də Rusiyada hörmətlə qarşılanır. Əksinə, ona sadəcə bir vasitə, alət kimi yanaşılır. Belə vəziyyətdə böyük dövlətlərin diqqətini Azərbaycan üzərində cəmləməsi isə, təbii ki, Qarabağ münaqişəsinin çözümündə də mühüm yeniliklərə yol aça bilər. Erməni politoloq Stepan Qriqoryan bildirir ki, böyük dövlətlərlə pisləşən münasibətlər Ermənistana ciddi zərə vuracaq:"Bu səbəbdəndir ki, indiki ağır durumda onlar bizdən qaçır. İş o yerə çatıb ki, Gürcüstan koronavirus pandemiyasının aradan qaldırılması işində Ermənistana yardım təklif edir. Rusiya isə Ermənistanın bu çətin vəziyyətində qazın qiymətini bahalaşdırmağı təklif edir. Rusiya ağır anlarda həmişə Ermənistana "atıb". Eyni mövqeni ABŞ tərəfdən də müşahidə edirik. Van döyüşü zamanı türklərə qarşı mübarizə aparanda 10-20 kilometr məsafədə olan rus qoşunlarının gəlmədiyini, dəstək vermədiyini, halbuki borclu olduğunu xatırlayaq... Qazın qiymətinin bahalaşdırılması məsələsində mən şantaj elementləri gördüm, Rusiyanın bugünkü hakimiyyətindən hər şey gözləmək olar. Onlar Qarabağ məsələsində də bizi güzəştə vadar etməyə hazırdır. Rusiya yenə Ermənistana yuxarıdan aşağı baxır. Azərbaycana isə hörmətlə yanaşılır. Bunların əvəzində Qərbdən də dəstək görmürük. ABŞ kimi nəhəng üçün Azərbaycan, Türkiyə ilə əməkdaşlıq prioritetdir. Bakı bütün bunlardan istifadə edib daha çox beynəlxalq dəstək almağa çalışır ki, Qarabağ münaqişəsini istədiyi çərçivədə daha tez həll edə bilsin".

Proseslərə bu şəkildə yanaşmanı Ermənistanda bölüşənlərin sayı kifayət qədərdir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# ÜST Ermənistanı təhlükəli koronavirus zonası elan edə bilərmi...

**Hazırda Cənubi Qafqazda əhalisinin koronavirusa yoluxma sayına görə Ermənistan "lider"dir. Vur-tut 3 milyona yaxın əhalisi olan kiçik bir ölkədə virus dalğasının günü-gündən genişlənməsi nəinki regiona, eləcə də bütün dünyaya böyük fəsadlar, ağrılar yaşada bilər. Bu istisna deyil.**

Özünün və ailə üzvlərinin də koronavirusa yoluxduğu Ermənistanın Baş naziri Nikol Paşinyan ölkədə koronavirus daşıyıcılarının sayı barədə danışıb. Paşinyan qeyd edib ki, Ermənistanda 100 mindən çox koronavirus daşıyıcısı var.

Qeyd edək ki, Ermənistanda son sutkada 766 nəfər koronavirusa yoluxub, 10 nəfər ölüb.

İndiyə kimi Ermənistanda 200 nəfər virus səbəbilə ölüb.

Ermənistanda virusa yoluxanların sayının həndəsi silsilə ilə artmasının bir sıra səbəbləri var. Əsas səbəblərdən biri də prosesin başdan nəzarətdən çıxmasıdır.

ÜST Ermənistanı təhlükəli koronavirus zonası elan edə bilərmi?

Ekspertlər qeyd edirlər ki, bu gün Ermənistandakı vəziyyət dünya üçün real qaçılmaz təhlükələr vəd edir. Onların fikrincə, bütün dünyada, o cümlədən də Cənubi Qafqazın iki ölkəsi - Azərbaycan və Gürcüstanda virusa tam nəzarət edilsə də, bu ölkələrdə ciddi karantin rejimi mövcud olsa da, əhalinin sağlamlığı, təhlükəsizliyi üçün lazımi tədbirlər görülsə də, biz Ermənistanda bunların şahidi ola bilmirik. Bu ölkənin nəinki cəmiyyətində, eləcə də həbsxanaları və ordusunda virusun sürətlə yayıldığını deyən ekspertlər hesab edirlər ki, beynəlxalq qurumlar artıq bu təhlükəli dövlətlə bağlı mövqelərini açıqlamalıdırlar.

Ekspertlərin sözlərinə görə, bu gün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Ermənistanı virusun yayıldığı təhlükəli zona elan etməli və dalğanın başqa ölkələrə də keçməməsi üçün tədbirlər görməlidir. Bu gün Ermənistana koronavirusla mübarizə aparması üçün kifayət qədər vəsait, tibbi ləvazimatlar ianə edilsə də, Paşinyan hakimiyyəti bunu xalqa yönəltmir. Ermənistanda test sayının az aparıldığını və buna görə də xəstəlik daşıyıcılarının böyük bir hissəsinin kənarda qaldığını qeyd edən ekspertlər hesab edirlər ki, hazırda bu ölkədə virusa yoluxanların real sayı 100 min nəfər yox, daha artıqdır. Çünki test sayı daha çox əhalini əhatə etsə, biz bu ölkədə daha çox insanın bu virusdan əziyyət çəkdiyini görə bilərik.

BDU-nun Tarix fakültəsinin Erməni araşdırmaları elmi-tədqiqat və tədris mərkəzinin böyük elmi işçisi, tanınmış ermənişünas İsmayıl Tanrıverdi bildirdi ki, hazırda Ermənistanda olan vəziyyət bütün dünyaya dəhşət saçır. "Bu gün Paşinyanın və onun rəhbərlik etdiyi hakimiyyətin başı başqa şeylərə qarışıb, onlar Ermənistanı başına götürən koronavirus epidemiyasının qarşısının alınması üçün heç bir tədbir görmürlər. Bu gün Ermənistan əhalisinin koronavirusa yoluxma sayına görə bəlkə də dünyanın əhalisi çox olan ölkələri ilə müqayisə edilməlidir. Yəni virusa yoluxanların sayı günü-gündən artır. Hesab edirəm ki, Ümumdünya Səhiyyə Təşkilatı vəziyyəti nəzarətə götürməli və Ermənistanı təhlükəli koronavirus zonası elan etməlidir. Əks halda, virus dalğası daha da genişlənə və qonşu dövlətlər, eləcə də dünya üçün ciddi faciələr yaşada bilər. Bu gün Ermənistanın ayrı-ayrı bölgələrində virusa yoluxanların sayı artır, Gürcüstandan Ermənistana tibbi ləvazimatlar və başqa vasitələr göndərilib. Gürcüstanın bu humanist addımını ermənilər lağlağı ilə qarşılayıb və "görün nə günə qaldıq ki, gürcülərin ümidinə qalmışıq" deyirlər. Bu, ermənilərin iç üzü. Paşinyan hökuməti əhalinin vəziyyətinə əhəmiyyət vermir. Hətta artıq Paşinyanın istefası məsələsi gündəmdədir. "Çiçəklənən Ermənistan" partiyasının sədri Paşinyana müraciət edərək bildirdi ki, Ermənistanda vəziyyət çox acınacaqlı olduğu üçün, Ermənistanın və erməni xalqının vəziyyətini nəzərə alaraq Paşinyan istefa verməlidir. Hazırda orada vəziyyət çox ağırdır. Bu gün Ermənistanda Paşinyana inam yoxdur, hətta camaat deyir ki, guya Paşinyan heç virusa yoluxmayıb və camaatla "virus oyunu" oynayır. Bununla da "görürsünüz ki, mən özüm və ailəm də virusa yoluxub" - deyə canını məsuliyyətdən xilas etmək istəyir. Hətta Paşinyanın əməllərinə etiraz əlaməti olaraq Ermənistanın Dövlət Gömrük Komitəsinin sədri David Ananyan da istefa verib. Halbuki, o, Paşinyanın ən yaxın silahdaşı idi, amma onun istefasını qəbul etdi. Ananyan keçirdiyi mətbuat konfransında bildirdi ki, onun müavini Paşinyanın yaxınlarının bəzi qaçaq malların gömrükdən keçirilməsinə razılıq vermədiyinə görə Paşinyan onu işdən azad edib, Ananyan da buna etiraz olaraq istefa verib".

***İsmayıl Tanrıverdi:*** *"Ümumdünya Səhiyyə Təşkilatı vəziyyəti nəzarətə götürməli və Ermənistanı təhlükəli koronavirus zonası elan etməlidir"*




*"Həm Paşinyanın, həm də Səhiyyə nazirinin koronavirusa istehzalı yanaşması..."*

İ.Tanrıverdi qeyd edir ki, bu gün Paşinyanın başı alverə qarışıb. Paşinyanın Ermənistanda əməllibaşlı diktatura yaratdığını deyən ekspert bildirdi ki, erməni Baş nazirin koronavirusla "mübarizəsi" ilə bağlı Sarkisyanın kürəkəni Minasyan ifşaedici videogörüntülər yayıb. Paşinyanın özünün maddi gəlirlərini artırmaq üçün siqaret alveri etməkdən belə çəkinmədiyini deyən ekspertin sözlərinə görə, o, özünə var-dövlət yığır.

**"Minasyanın yaydığı videolarda açıq görünür ki, virusun yayıldığı ilk dövrlərdə Paşinyan "koronavirus nə itdir ki, bizim xalqa toxuna" kimi açıq iddialar irəli sürüb. Ermənistanın Səhiyyə naziri də həmin videoda deyir ki, "qısa müddətdə koronavirusu məhv edəcəyik". Amma həm Paşinyanın, həm də Səhiyyə nazirinin koronavirusa istehzalı yanaşması bu gün Ermənistanı təhlükəli bir virus ocağına çevirib. ÜST-in müdaxiləsi olmasa, Ermənistandakı virus bütün dünyaya yayılacaq" - deyə İ.Tanrıverdi vurğuladı.**

***İradə SARIYEVA***

# "Şimal axını-2"nin gələcək taleyi ciddi sual altında - Azərbaycan Avropanın tək ümid yeri oldu

**Qərb ölkələri arasında Rusiyanın "Şimal axını-2" layihəsi ətraflmda ziddiyyətlərin daha da dərinləşməsi müşahidə edilir. Belə ki, Avropa ölkələrinin bir çoxu bu layihənin əleyhinə çıxır, bəziləri isə onu dəstəkləyir. Məhz belə vəziyyət "Şimal axını-2"nin gələcəyini ciddi sual altına alır.**

Bu arada xatırladaq ki, amerikalı senatorlar "Şimal axını-2" qaz kəmərinə qarşı sanksiyaların genişləndirilməsini planlaşdırırr. Bununla əlaqədar Konqresin respublikaçı üzvləri Ted Kruz, Tom Kotton, Ron Conson, Con Brasso və demokrat Gene Şahen yeni layihə hazırlayıb. Layihəyə əsasən, sanksiyaların əhatə dairəsi genişləndirilərək, yalnız boru kəmərinin tikintisində iştirak edən şirkətlərə deyil, eyni zamanda hüquqi dəstək verən, həmçinin sığorta və liman xidmətlərini təmin edən şirkətlərə də şamil olunacaq. Bu isə bəzi şirkətlərin "Şimal axını-2"ni tərk etməsi ilə müşayiət ediləcək. Yaranmış vəziyyətdə bir çox ölkələr ABŞ-a dəstək verir. Amma rəsmi Berlin fərqli mövqedədir. Almaniyanın İqtisadiyyat və energetika nazirliyinin nümayəndəsi Anna Sofi Ayhler bu xüsusda bildirir ki, Almaniyanın "Şimal axını-2" layihəsi üzrə mövqeyi ABŞ-ın qaz boru kəmərinə qarşı mümkün yeni sanksiyalar barədə verdiyi açıqlamalardan sonra dəyişməz qalıb, Berlin bu sanksiyaları qəbul etməyəcək. Onun sözlərinə görə, Almaniya hökuməti, ABŞ-ın açıqlamaları da daxil olmaqla "Şimal axını-2" layihəsi ətrafındakı hadisələrin inkişafını izləyir, lakin bu açıqlamalara münasibət bildirmir:"Sözügedən sanksiyalarla bağlı əsas mövqeyimiz aydındır - Almaniya onları rədd edir".

Qeyd edək ki, bundan öncə Almaniya hökuməti "Şimal axını-2" layihəsini müsbət qiymətləndirdiyini və layihədə iştirak edən şirkətlərə dəstək göstərməyi planlaşdırıdığını bildirmişdi. Hökumət sözügedən qaz boru kəmərinin tikintisinə, ilk növbədə, iqtisadi layihə kimi baxır. Bundan başqa, Almaniya bildirir ki, rəsmi Vaşinqton "Şimal axını-2" layihəsi üzrə təzyiqləri dayandırmasa, Almaniya ABŞ qazına qarşı cərimə rüsumları tətbiq edə bilər. Bundestaqın enerji komitəsinin rəhbəri Klaus Ernst bu xüsusda qeyd edir:"ABŞ-ın bu məsələdə davranışı artıq dostluq aktı kimi başa düşülməməlidir, bu, Almaniyanın və Avropa İttifaqının suverenliyinə qəsddir". Amma bir sıra Avropa dövlətləri Almaniyanın bu mövqeyinə qarşıdır. İngiltərə parlamentinin üzvü Deniel Kavçinski bildirir ki, Almaniya belə bir mövqe sərgiləməklə "Avropanı Rusiyaya satır". O, alman hökumətinin mövqeyinin dəyişməsi üçün İngiltərənin dərhal hərəkətə keçməsini istəyir. Bu mövqe Danimarka, Norveç və bir sıra digər Avropa ölkələri tərəfindən də dəstəklənir. Amma Avstriya, İtaliya kimi ölkələr də Almaniyaya dəstək verir. Məhz bu durumda "Şimal axını-2" ətrafında vəziyyət gərginləşir. Belə vəziyyətdə Avropanın yeni mənbədən qaz alması isə yalnız Azərbaycan hesabına mümkünləşir. Çünki yalnız Azərbaycan qazının Avropaya çatdırılması ətrafında hələ də hansısa ziddiyyət müşahidə olunmur. Əksinə, buna bütün dünya ölkələri tərəfindən açıq dəstək var. Bu durumda Azərbaycan təbii qazını Avropaya çatdıracaq TAP boru kəmərinin də inşası başa çatmaq üzrədir. Xatırladaq ki, ötən il iyulun əvvəlində TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

Qeyd edək ki, TAP layihəsi çərçivəsində Yunanıstanda sınaq işləri tamamlanıb. Mayın 20-dən isə təbii qazın TAP-ın Albaniyadakı 4 kilometrlik hissəsinə, yəni Yunanıstan-Albaniya sərhədində və Bilisht regionunun yaxınlığındakı ölçmə stansiyasına nəqlinə başlanılıb. Bu hissə istifadəyə verildikdən sonra qazın qarşıdakı həftələrdə və aylarda boru kəmərinin Albaniyadakı digər hissələrinə tədricən daxil edilməsi həyata keçiriləcək. Layihə, artıq bilindiyi kimi, Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün geniş imkanlar yaradır. Bu durumda Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının ikinci fazasının reallaşdırılması Azərbaycanın dünya qaz bazarında mühüm bir yer tutmasına zəmin yaradır. Qaz hasilatının ildə-ilə artması ölkənin həm daxili tələbatının ödənilməsini, həm də yeni ixrac bazarlarına çıxışını təmin edir. Qaz İxracatçısı Ölkələri Forumunun məlumatına əsasən, "Cənub Qaz Dəhlizi"nin ikinci mərhələsinin, yəni TAP-ın istifadəyə verilməsindən sonra Azərbaycandan Avropaya boru kəmərləri ilə ixrac edilən qazın həcmi ilk mərhələdə 16 milyard kubmetr artacaq. Sonradan bu rəqəm tədricən yüksələcək.




**Belə ki, "Şahdəniz"dən savayı, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Babək", "Naxçıvan", "Zəfər-Məşəl", "Araz-Alov-Şərq" və "Şəfəq-Asiman" perspektiv strukturlarından ilkin çıxarıla biləcək qaz ehtiyatları 2 trilyon 200 milyard kubmetr həcmində qiymətləndirilir. Bu da Azərbaycana daha böyük həcmdə qaz nəqlinə imkan verir. Beləliklə, Azərbaycanda yeni yataqların açılması və böyük potensiala malik bir sıra perspektiv strukturları mövcudluğu ölkədə qaz hasilatının artırılması və gələcəkdə neft gəlirlərinin müəyyən dərəcədə qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır.**

***Ramil QULİYEV***

**Sahibkarlığın güzəştli şərtlərlə kreditləşməsi yeni qaydalarla həyata keçiriləcək. Belə ki, Prezident İlham Əliyev Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsinin yeni qaydasını təsdiq edib. Yeni qaydalara əsasən, güzəştli kreditlərin həcmi 10 min manatdan 10 milyon manata qədər təşkil edə bilər.**

*”Bütün bunların sayəsində qeyri-neft sektorunun davamlı inkişafı təmin ediləcək”*

# Prezident sahibkarlığa güzəştli kreditlər sistemini köklü dəyişdirdi - 10 mindən 10 milyona, 3-10 illiyə...

## ***Vüqar Bayramov:*** *”Sahibkarların postpandemiya dövründə güzəştli kreditlərdən istifadə imkanları genişlənəcək”*



Kreditlər məbləğindən asılı olaraq 3-10 il mddətinə qaytarılma şərtilə verilir. Sahibkarlığın İnkişafı Fondu güzəştli kreditlərin ümumi faiz dərəcəsinin illik 5% -dən çox olmamaq şərtilə öz resurslarını müvəkkil kredit təşkilatlarına illik 1% ilə təqdim edəcək.

Sözügedən qərar ölkə iqtisadiyyatında qeyri-neft sektoruna investisiya qoyuluşlarının və özəl sektorda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının artırılması ilə əlaqədar sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, eləcə də Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun maliyyələşdirmə alətlərinin genişləndirilməsi məqsədi daşıyır.

Bütün bunların fonunda, yeni qaydalar sahibkarlığın inkişafında və bu sektorun kredit təminatında necə necə rol oynayacaq?

Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramovun sözlərinə görə, sözügedən qərar sahibkarların kredit təminatına müsbət təsir edəcək: "Bütün bunlarda məqsəd ondan ibarətdir ki, sahibkarların kredit resurslarına çıxış imkanları artsın. Eyni zamanda, sahibkarlar güzəştli kreditlərdən daha çox istifadə etmək imkanına malik olsunlar. Mövcud iqtisadi paket çərçivəsində hazırda sahibkarlara yarım milyard güzəştli kreditin təklif edilməsi nəzərdə tutulub. Həmin kredit portfelinin 60 faizinə dövlət özü zəmanət verəcək. Bununla yanaşı, sahibkarlara veriləcək 1 milyard manatadək kreditə subsidiya tətbiq olunacaq. Yəni həmin kreditlərin 10 faizi dövlət tərəfindən subsidiya kimi veriləcək. Digər tərəfdən, güzəştli kreditlərin verilməsinin yeni qaydasının təsdiq edilməsi onu göstərir ki, sahibkarların postpandemiya dövründə güzəştli kreditlərdən istifadə imkanları genişlənəcək. Bu da imkan verəcək ki, sahibkarlar güzəştli kreditlərdən daha sıx şəkildə istifadə etsinlər.

Müddətin uzun olması kreditlərdən uzunmüddətli dövr üçün istifadəetmə imkanları deməkdir. Hesab edirəm ki, bu, sahibkarlar üçün vacibdir. O mənada ki, bu, onlara işlərini planlaşdırmağa imkan verəcək. Digər tərəfdən, faizlərin aşağı salınması, məbləğin artırılması sahibkarlara daha böyük həcmdə kredit götürməyə şərait yaradacaq. Ona görə də bu, birmənalı şəkildə, imkan verəcək ki, sahibkarların kredit resurslarına çıxış imkanları artsın. Növbəti mərhələdə biz sahibkarların dövlət tərəfindən daha yaxından dəstəklənməsinin və onların aşağı faizlərlə kreditlərlə təmin olunmasının şahidi olacağıq. Bütün bunların sayəsində qeyri-neft sektorunun davamlı inkişafı təmin ediləcək".

***Vidadi ORDAHALLI***

---

**Bölgələrin əksəriyyətində müəllim qıtlığı təhsilimizin əsas problemlərindən biridir. Təhsil səviyyəsinin yüksəldilməsi, o cümlədən, müəllimlərin rifahının yaxşılaşdırılması istiqamətində bir sıra addımlar atılsa da, bölgələrdə, xüsusilə də ucqar kəndlərdə müəllim çatışmazlığı hələ də özünü qabarıq şəkildə göstərməkdədir.**



# Ucqar kəndlərimizin təhsil müəssisələrində kadr çatışmazlığının səbəbləri - mütəxəssislərlə həll yollarını müzakirə edirik...

## ***Kamran Əsədov:*** *”Məhz gəncləri regionlarda məktəblərə cəlb etmək üçün əməkhaqlarına müvafiq əlavələr edilməlidir”*

Bu gün müəllim ixtisasına yiyələnən, lakin dərs demək üçün ucqarlara getmək istəməyənlərin əsas şikayəti maddiyyatla bağlıdır. Onlar dərs yükləri az olduğu və buna görə də aşağı maaş aldıqları üçün ucqar yerlərdə qalmaq istəmədiklərini deyirlər. Amma kənd məktəblərində müəllimlərə ehtiyac çox olduğu üçün, onların maaşlarında müəyyən artımlar müşahidə olunmaqdadır. Bölgələrdə müəllimliklə məşğul olub, müəyyən qədər ehtiyacları qarşılamaq mümkündür. Təəssüf ki, indi müəllim peşəsinə yiyələnən insanların bir qismi ya bunu etmək istəmir, ya da edə bilmir. Deməli, ortada hansısa problem mövcuddur.

Təhsil eksperti Kamran Əsədov ucqar rayonlarda kadr çatışmazlığının həlli yolunu tətbiq edilən güzəştlər üçün müəllimlərin yaş həddinin artırılmasında görür: "Ölkədə son illər müəllimlərin işə qəbulu, onların sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılıb. Bir çox yerdə müəllimləri cəlb etmək üçün həvəsləndirmə tətbiq edilir. Həvəsləndirmə rayon mərkəzindən 3 km-dən artıq məsafədə yerləşən kənd məktəbləri üçün nəzərdə tutulub. Həvəsləndirmənin 2 istiqaməti var. H1 rayon mərkəzindən 3 km-dən 20 km-ə qədər məsafədə yerləşən kənd məktəbləri üçün nəzərdə tutulub. H1-də maaşın üstünə 60 manat əlavə vəsait gəlir.

*”...tətbiq edilən güzəştlər üçün müəllimlərin yaş həddi artırılmalıdır”*

H2 20 km-dən artıq məsafədə yerləşən kənd məktəbləri üçün nəzərdə tutulub. H2 üçün 160 manat məbləğində vəsait nəzərdə tutulur.

Bütün bunlar əla. İndi gələk əsas məsələyə: 5 il ərzində elektrik enerjisi və nəqliyyat daşıyıcılarının qiymətləri azı 2 dəfə bahalaşıb, amma müəllimin məhz bu problemini həll etmək üçün müəyyən edilmiş məbləğ artmayıb. İkincisi, müəllim 35 yaşı tamam olandan sonra da həmin yolu gedir və enerjini sərf edir. Ona görə də həvəsləndirmə proqramlarında 35 yaş məhdudiyyəti aradan qaldırılmalıdır.

Yoxsa, H1 və H2 tətbiq edilən məktəblərdə çalışanlar bu yardım dayanandan sonra məktəbi dəyişəcək. Belə hallar artıq baş verir. Bir də bölgələrdə müəllimlərin dərs saatı 25-30 saat deyil ki, onlar yüksək əməkhaqqı alsınlar. Məhz gəncləri regionlarda məktəblərə cəlb etmək üçün əməkhaqlarına müvafiq əlavələr edilməlidir. Bir daha təklif edirəm ki, H1 və H2-yə görə verilən vəsaitlər və yaş həddi artırılsın".

***Günel CƏLİLOVA***

**Sosial şəbəkələrdə koronavirusa yoluxan xəstələrin görüntüləri yayılıb. Yayılan görüntülərin koronavirus xəstələri üçün ayrılmış xəstəxanaların birinin reanimasiya şöbəsində lentə alındığı qeyd olunur. Görüntülərdə COVID-19-a yoluxanları üzlərinin açıq-aşkar görünməsi sosial şəbəkə istifadəçiləri tərəfindən birmənalı qarşılanmayıb.**

# Reanimasiyada müalicə alan azərbaycanlı koronavirus xəstələrinin videogörüntülərini kim və necə ictimailəşdirib?



***Adil Qeybulla:** "Etik cəhətdən koronavirusa yoluxmuş şəxslərin kimliyinin açıqlanması düzgün deyil"*

***Rəvanə Əliyeva:** "Təəssüf ki, xəstəxana işçilərindən kimsə vətəndaşların hüquqlarını tapdayaraq, bizim qoruduğumuz gizliliyi pozub"*

***Azər Həsrət:** "Xəstəlik şəxsi informasiyadır və insanlar belə informasiyanın ictimailəşdirilməsinin tərəfdarı deyil"*

Qeyd edək ki, koronavirusa yoluxan xəstələrin nə adları açıqlana bilər, nə də həmin xəstənin görüntüsü.

Maraqlıdır, pasiyentlərin şəxsi məlumatlarının açıqlanması, onların görüntüsünün yayılması nə dərəcədə doğrudur?

TƏBİB-in mətbuat katibi Rəvanə Əliyeva bildirdi ki, təmsil etdiyi qurum mövcud vəziyyətdən xəbərdardır: "Görüntülər, həqiqətən, pandemiya əleyhinə xəstəxanada çəkilib. Bəli, görüntülər koronavirusla mübarizə çərçivəsində ayrılan pandemiya xəstəxanalarından birində çəkilib. Videogörüntülərdəki xəstələr COVID-19-a yoluxan xəstələrdir. Təəssüf ki, xəstəxana işçilərindən kimsə vətəndaşların hüquqlarını tapdayaraq, bizim qoruduğumuz gizliliyi pozub. Bilirsiniz ki, COVID-19 xəstələrini nəinki çəkmək, hətta adlarının açıqlanmasına belə icazə yoxdur. TƏBİB bu məsələni ciddi nəzarətə götürüb. Çox güman ki, görüntülər xəstəxana əməkdaşları tərəfindən lentə alınıb. Hazırda şəxs və ya şəxslərin kimliyinin müəyyənləşdirilməsi istiqamətində araşdırma aparılır. Qanunvericilik çərçivəsində bu videonu çəkən şəxs barəsində cinayət işi başlanacaq".

Professor Adil Qeybulla qeyd etdi ki, etik cəhətdən koronavirusa yoluxmuş şəxslərin kimliyinin açıqlanması düzgün deyil: "Xəstələrin videosu yayılmaqla onların hüququ kobud şəkildə pozuldu. Məlum videonu yaymaqla həm xəstələr əziyyət çəkir, həm də onların yaxınları. Ümumiyyətlə, tibbdə belə bir qayda var, hər hansı bir xəstəliklə bağlı xəstənin icazəsi olmadan şəxsi məlumatlarının açıqlanması düzgün deyil".

Tanınmış media eksperti, siyasi şərhçi Azər Həsrət bildirdi ki, belə xəstələrin şəxsi məlumatlarının tirajlanması heç bir baxımdan düzgün deyil: "Xəstəlik şəxsi informasiyadır və insanlar belə informasiyanın ictimailəşdirilməsinin tərəfdarı deyil. Əlbəttə, bu, seçimlə bağlıdır. Yəni virusa yoluxmuş şəxs özü barədə bu məlumatın yayılıb-yayılmaması ilə bağlı qərar verə bilər. Lakin indiki həssas məqamda, koronavirusla mübarizə apardığımız dövrdə bu virusa yoluxanlarla bağlı şəxsi informasiyaların yayılması ictimaiyyəti ciddi narahat edən bir məsələdir. Amma bir məqam da var ki, bəzi şəxslər ictimai statusuna görə fərqlənirlər və onlar koronavirusa yoluxublarsa, onlarla bağlı informasiyanın gizlədilməsi də doğru olmazdı. Məsələn, çox mühüm dövlət vəzifəsi tutan şəxslərdə bu xəstəlik aşkarlanarsa, bu açıqlanmalıdır. Görürsünüz ki, Böyük Britaniyanın Baş naziri Boris Consonun bu virusa yoluxması xəbəri dərhal ictimailəşdirildi, bunda o özü də maraqlı oldu. Çünki dövləti idarə edən bir şəxsin koronavirusa yoluxmasını xalqın bilməsi vacibdir. Amma sıradan bir vətəndaşın adının açıqlanması, onun özünün razılığı olmadan kimliyinin tirajlanması doğru deyil. Heç bir media orqanı virusa yoluxan sadə vətəndaşların özlərinin razılığı olmadan nə adlarını açıqlaya, nə də şəkillərini yaya bilər. Ümumiyyətlə, onlarla bağlı hər hansı bir müzakirənin aparılması doğru deyil. Kimlərsə koronavirusa yoluxmuş şəxslərin icazəsi olmadan onların adlarını qeyd edirsə, şəkillərini tirajlayırsa, bu, qeyri-etik davranışdır, digər tərəfdən də qanun pozuntusudur. Bu, şəxsi informasiyaların icazəsiz açıqlanması kateqoriyasına aiddir və təbii ki, bu da yolverilməzdir".

*Günel CƏLİLOVA*

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19 üzrə sözçüsü Marqaret Harris çimərliklərlə bağlı təzadlı açıqlamalar verib. O bildirib ki, koronavirusun sudan keçməsi halı müşahidə edilməyib. Amma insanlar suda olan zaman ağızlarının və gözlərinin suya toxunmamasına diqqət etməlidirlər:**

# Dəniz suyunda koronavirusların təhlükəlilik ehtimalı...



## Cəlal İsayev: "Xəstə insanlar dənizin sahilində oturacaq, söhbət edəcəklərsə, yenə də ətrafdakıları yoluxdura bilərlər"

*"Hovuzlar xlorlanmalı, sular tez-tez dəyişdirilməlidir, bütün bunlara əməl olunmasa..."*

"Çimərlikdə suya qurşağa qədər girmək olar. Çünki insanlar çalışmalıdırlar ki, başları dəniz suyu ilə islanmasın. Yəni gözə, buruna, ağıza dəniz suyu dolmamalıdır. Həmçinin, mütləq şəkildə sosial məsafəyə riayət etsinlər. Təmiz havada olmaq çox yaxşıdır. Amma sağlam istirahət etmək daha önəmlidir. Çünki virus öldürücüdür. Ona görə də insanların çox toplaşdığı çimərliklərdə xüsusilə ehtiyatlı olmaq lazımdır. İnsanların sıx olmadığı yerdə çimmək lazımdır ki, virusa tutulmayasan".

İspaniyanın Elmi Tədqiqatlar üzrə Ali Şurası (CSIC) isə insanların dənizdə, hovuzda və ya SPA salonlarında koronavirusa yoluxma risqini qiymətləndirir. Alimlərin fikrincə, dəniz suyunun tərkibindəki duz və bir sıra digər maddələr virusu deaktiv edə bilər. Bununla yanaşı, hovuz və SPA salonlarında dezinfeksiyaedici maddələrdən istifadə olunur ki, bunlar da virusun qarşısını almaq imkanına malikdir. Həmçinin, saunalardakı 60 dərəcə temperatur nəzərə alınarsa, həmin hərarətin virus üçün boğucu təsirləri olduğu qeyd edilir.

Koronavirusun dənizdə yayılıb-yayılmaması ilə bağlı müxtəlif fikirlər səslənir. Onu da nəzərə almaq lazımdır ki, çimərlik mövsümünün açılmasına az qalıb. Maraqlıdır, insanlar dəniz vasitəsilə koronavirusa yoluxa bilərmi?

Azərbaycanın baş infeksionisti Cəlal İsayev bildirdi ki, insan suya girəndə ağzına su dolur: "Əgər həmin şəxs koronavirus daşıyıcısıdırsa, yaxud xəstəsidirsə, onun tüpürcəyi də virusludur. Həmin insan ağzındakı suyu tüpürməklə dəniz suyunu viruslu edir. Təbii ki, virus da müəyyən müddət dəniz suyunda qala bilir. Həmin su sağlam adamın ağzına, gözünə düşərsə, onu yoluxdura bilər. İkinci tərəfdən, xəstə insanlar dənizin sahilində oturacaq, söhbət edəcəklərsə, yenə də ətrafdakıları yoluxdura bilərlər. Əsas odur ki, insanlar o tövsiyələrə əməl etsinlər".

C.İsayev onu da əlavə etdi ki, koronavirusun dəniz suyunda qalma müddəti hələ dəqiqləşdirilməyib: "Koronavirus dəniz suyunda nə qədər qala bilər? Hələ bunu öyrənən yoxdur. Hətta orada bir saat da qalsa, kifayət edir ki, suya girən insanları yoluxdursun".

Baş infeksionist hovuzlarda suya qarışdırılan xlorun koronavirusu öldürdüyünü dilə gətirdi: "Xlor koronavirusu bir neçə dəqiqəyə öldürür. Düzdür, orada koronavirusun qalma ehtimalı çox zəifdir, amma, hər halda, hovuzlar açılsa da, orada müəyyən tədbirlər edilməlidir. Hovuzlar xlorlanmalı, sular tez-tez dəyişdirilməlidir. Bütün bunlara əməl olunmasa, hovuzlar infeksiya mənbəyi ola bilər".

*Günel CƏLİLOVA*

# Həftəsonu sərtləşmiş karantin pozuntularının yoluxma prosesinə sürətləndirici təsirləri...

**İlqar Hüseynli:** *"Bu, yoluxma prosesinin sürətlənməsinə səbəb ola bilər"*

**Azərbaycan dövləti koronavirusla mübarizə tədbirləri çərçivəsində vətəndaşların sağlamlığı, təhlükəsizliyi istiqamətində saysız tədbir həyata keçirir. Görülən bütün tədbirlərin bir əsas məqsədi var - vətəndaşlarımızın pandemiyaya yoluxmasının qarşısını almaq, onların sağlamlığını təmin etmək.**

*"...dövlətin qabaqlayıcı tədbirlərinə vətəndaşlar birmənalı şəkildə əməl etməlidirlər"*

Məlum olduğu kimi, ötən həftənin şənbə və bazar günlərində respublikamızın 4 şəhərində və bir rayonunda - Bakı, Sumqayıt, Gəncə, Lənkəran və Abşeronda ikigünlük sərt karantin rejimi elan edildi və vətəndaşlara yaşayış yerlərini tərk etməsilə bağlı qadağa qoyuldu. Əlbəttə, bütün bunlar yoluxmanın qarşısının alınmasına xidmət edən amillərdir. Amma çox təəssüflər olsun ki, ikigünlük sərt karantin rejimi zamanı vətəndaş məsuliyyətsizliyi ilə bağlı kifayət qədər fakt üzə çıxdı. Polislərin həyətləri, məhəllələri tez-tez yoxlamasına, insanlara nəzarət etməsinə baxmayaraq, bəzi vətəndaşlar polisin tələblərinə əhəmiyyət verməyərək, öz neqativ əməllərini ortaya qoydular. Çox təəssüf ki, bu günlərdə küçələrə çıxanlar da, qrup şəklində futbol oynayanlar da, yaşayış binasının damında kabab bişirib domino oynayanlar da, zibil atmaq bəhanəsi ilə çöldə görünənlər də, hətta öz vəzifəsini məsuliyyətlə yerinə yetirən polisə müqavimət göstərənlər də oldu. Hər bir vətəndaş evdə qalmalı olduğu halda, bəziləri məsuliyyətsizlik edərək, nəinki özləri bayıra çıxdılar, hətta körpə uşaqlarını da çölə çıxarmaqdan çəkinmədilər. Sanki dövlətin qəbul etdiyi ikigünlük sərt karantin rejiminin bunlara heç bir aidiyyəti yox idi.

Ekspertlər qeyd edirlər ki, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən həftə sonlarında sərt karantin rejiminin reallaşdırılması birbaşa yoluxmanın qarşısının alınmasına yönəlsə də, vətəndaşlar yenə də bunu dərk etmək istəmədilər.

Həftəsonu sərtləşdirilmiş karantin rejimini pozan vətəndaşların sayəsində virusun artım sürətinin irəliləyəcəyini qeyd edən ekspertlər hesab edirlər ki, əhali nə etdiyinin fərqində olmaq istəmir. İkigünlük karantin rejiminin yoluxmaların qarşısının alınması məqsədilə elan edildiyini deyən ekspertlər hesab edirlər ki, Azərbaycandan sonra koronavirusla mübarizəyə qoşulan ölkələrin bəzilərində artıq pandemiya başa çatmaqdadır. Azərbaycanda isə bütün qabaqlayıcı tədbirlər




görülməsinə baxmayaraq, vətəndaş məsuliyyətsizliyi səbəbindən hələ də biz virusdan yaxa qurtara bilmirik.

Sosial sahə üzrə tanınmış mütəxəssis İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, bütün dünya ölkələrində olduğu kimi, karantin qaydalarının sərtləşdirilməsi ilə əlaqədar Azərbaycanda da müəyyən inzibati xətalara yol açan xoşagəlməz situasiyalar var. "Bunlar baş verir. Prosesi tam olaraq diqqətlə dərk etməyən vətəndaşlarımız var. Amma konkret baş verən olaylarla bağlı onu deyə bilərəm ki, hansısa bir vətəndaş inzibati xətaya yol verən hərəkət edirsə, qanunun müvafiq maddəsini pozursa, ona bu başa salınmalıdır ki, açıq şəkidə qanunsuzluqlar baş verməsin. Təbii ki, vətəndaşların karantin qaydalarına əməl etməsi vacibdir. Biz Azərbaycanda tendensiyanı müşahidə ediriksə və ölkəmizdə yoluxmanın həcmi artır, yoluxma miqyası böyüyürsə, dövlətin qabaqlayıcı tədbirlərinə vətəndaşlar birmənalı şəkildə əməl etməlidirlər. Vətəndaşlar bundan sonra daha diqqətli olmalı və dövlətin karantin rejiminə, "evdə qal" çağırışlarına riayət etməlidirlər. Müəyyən vətəndaşlar bu qaydalara tabe olmurlarsa, onda İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq, onlara cərimə sanksiyası tətbiq edilməlidir".

İ.Hüseynli qeyd etdi ki, vətəndaşlar karantin rejiminə əməl etməsələr, bu, yoluxma prosesini sürətləndirə bilər: "Sözsüz ki, bu, yoluxma prosesinin sürətlənməsinə səbəb ola bilər. Dövlət də qabaqlayıcı tədbirlər planını davam etdirməlidir. Xüsusən ictimai nəqliyyatda bu problem dərindir və burada məsuliyyət yalnız vətəndaşın üzərində deyil, həm də ictimai nəqliyyatda xidməti təşkil edən sürücülərin də, müvafiq qurumların da üzərindədir. Hesab edirəm ki, onlar da avtobusda, metroda ciddi karantin rejimi ilə bağlı nəzarət mexanizmlərini gücləndirməlidirlər".

*İradə SARIYEVA*

# Azərbaycanda koronavirus ən çox ictimai nəqliyyatda yayılır - nə etməli...

**Yasin Mustafayev:** *"İctimai nəqliyyatda məsafəni gözləməmək, sıxlıq yaratmaq, maska taxmamaq, dezinfeksiya vasitələrindən istifadə etməmək virusun daha çox yayılmasına və təhlükənin gec sovuşmasına səbəb olur"*

**Koronavirusun yayılmasının qarşısını almaq məqsədilə ölkədə həyata keçirilən silsilə tədbirlər davam etdirilir. Tətbiq edilən izolyasiya qaydaları içərisində xüsusi vurğulanan məqamlardan biri tibbi maskalardan istifadənin vacibliyidir.**



Xüsusən virusun yayılma ehtimalının daha böyük olduğu ictimai nəqliyyat vasitələrində maskalardan istifadə məcburi elan edilib. Elə bu səbəbdən ictimai nəqliyyatda tibbi maskadan istifadə etməyənlər qanunvericiliyin tələbinə uyğun olaraq cəzalandırılır. Tətbiq edilən sərt qaydalara baxmayaraq, hələ də bəzi sərnişinlərin maska taxmaqdan boyun qaçırmağa meylli olduqlarının şahidi oluruq.

Ekspertlər bildirirlər ki, koronavirus ən çox qapalı məkanlarda yayılır. Qapalı məkanlar sırasına ictimai nəqliyyat da aid edilir. İctimai nəqliyyatda koronavirusun yayılmasının qarşısını almaq üçün sosial məsafəyə necə riayət edilməlidir?

Nəqliyyat sahəsi üzrə ekspert Yasin Mustafayev bildirdi ki, ictimai nəqliyyatda izolyasiya qaydalarına ciddi əməl etməyimiz virus təhlükəsinin daha tez aradan qalxmasına səbəb olar: "Ölkədə tətbiq olunan izolyasiya qaydaları insanlarımızın sağlamlığı üçündür. Bu qaydalara nə qədər ciddi şəkildə əməl olunarsa, biz koronavirus adlı bəladan daha tez yaxa qurtara bilərik. Hər kəs öz üzərində məsuliyyət hiss edərək qaydalara qeyri-şərtsiz əməl etməlidir. Əməl etməkdicə, yoluxma davam edəcək.

Virusun yayılması əsasən insanlar arasında təmas vasitəsilə və ara məsafəsini gözləməməkdən baş verir. Xüsusən ictimai nəqliyyatda məsafəni gözləməmək, sıxlıq yaratmaq, maska taxmamaq, dezinfeksiya vasitələrindən istifadə etməmək virusun daha çox yayılmasına və təhlükənin gec sovuşmasına səbəb olur. İnsanlarımızın tətbiq olunan qaydalara riayət etməməsi virusa yoluxma sayında yenidən artımlara səbəb oldu. Buna görə də biz bir daha məsuliyyətli olmalıyıq.

Burada ilk məsələ maskalardan istifadə etməkdir. Artıq qanunla da maskadan istifadə etməməyə görə cərimə tətbiq edilir. İkinci məsələ avtobuslarda ara məsafəsinin qorunmasıdır. Maska taxılıbsa, təqribən 1,5 metr ara məsafəsi saxlanmalıdır. Nəzərə almalıyıq ki, bir nəfərin məsuliyyətsizliyi hamını əziyyətə salır".

*Günel CƏLİLOVA*

# Tarix-mədəniyyət abidələrinin bərpa xidmətinin həbs olunmuş rəhbərliyinin daha bir cinayəti - Goranboyun Safıkürd qəbiristanlığı...



***Fariz Xəlilli:*** *"Dövlət Xidmətində baş verən hadisələrdən sonra..."*

***Rizvan Qarabağlı:*** *"...hər kəs maddi mədəniyyət abidələrini qorumalıdır"*

**Qəbiristanlıqlar hər bir xalqın tarixi keçmişini özündə yaşadan tarixi abidələr olsa da, çox təəssüflər olsun ki, bir çox halda ölkəmizdəki qədim qəbiristanlıqlara əlaqədar qurumların laqeyd münasibətinin şahidi oluruq. Azərbaycanda qədim qəbiristanlıqlar, o qəbiristanlıqlarda qəbirüstü abidələr, türbələr kifayət qədərdir.**

Bu qəbiristanlıqların çoxu aidiyyəti dövlət qurumları tərəfindən qeydiyyata alınsa da, xeyli bir hissəsi qeydiyyatdan kənarda qalıb. Fakt budur ki, əksər vaxtda dövlət qeydiyyatında olan abidələrin özlərinə belə, həmin sahədə təmir-bərpa, mühafizə işi həyata keçirən məsul qurumların biganəlik sərgilədiyi müşahidə olunur. Halbuki, o abidələrin hər birinə ayrıca münasibət olmalıdır. Bundan başqa, yerli bələdiyyələr və icra hakimiyyəti strukturları, regional mədəniyyət idarələri bu prosesdə yaxından iştirak etməli, təhlükəli vəziyyətdə olan abidələri araşdırmalı, yerini müəyyən etməli, onun vəziyyəti ilə bağlı Mədəniyyət Nazirliyinə məlumat verməlidirlər. Bu məsələ də bizdə ürəkaçan səviyyədə deyil. Hamı özünü problemi görməyən kimi aparır və bununla da "mənim xəbərim olmayıb", yaxud "problem yoxdur" kimi rəylər formalaşdırmağa çalışırlar.

Goranboy rayonunun Safıkürd kəndində dağılmaq üzrə olan qədim qəbiristanlıq və oradakı türbə də eyni aqibətlə üzləşib.

Mətbuatda Goranboy rayonunun Safikürd kəndindəki qəbiristanlıqda dağılmaq üzrə olan qədim türbə və tarixi qəbirlərin olduğuna dair məlumatlar yer alıb. Vətəndaşlar qədim məzar daşlarının bir hissəsinin artıq aşdığını, bəzilərinin isə yaxınlığında yeni qəbir yerləri qazıldığı üçün zədələndiyini deyiblər.

Qeyd edilənə görə, Goranboy rayonunun Safıkürd kəndindəki "Köhnə qəbiristanlıq" Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix-mədəniyyət abidələri siyahısına arxeoloji abidə kimi salınsa da, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin biganəliyi ucbatından dağılmaq üzrədir. Burada söhbət qədim qəbirlərdən və türbələrdən gedir.

Ümumiyyətlə, burada söhbət, bütövlükdə, ölkəmizdə qədim qəbiristanlıqlara və türbələrə əlaqədar təşkilatların münasibətindən gedir.

Goranboy rayonunun Safıkürd kəndindəki qədim qəbiristanlıqdakı vəziyyətdən xəbərdar olduğunu deyən MİRAS - Mədəni İrsin Öyrənilməsinə Komək İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda içində türbələr olan tarixi qəbiristanlıqlar çoxdur. "Hazırda onların hamısını konservasiya etmək çox çətin məsələdir. Amma dövlət bu istiqamətdə işlər görür, Avaxıl, Şahxəndan və başqa türbələrdə işlər görülüb. Bu türbələr Azərbaycan tarixində rol oynamış insanlara aiddir. Bu türbələrin konservasiya edilməsi üçün əvvəlcə onların hamısının sənədləşdirilməsi lazımdır. İlk gündən də mənim bu məsələdə fikrim belədir ki, Azərbaycanda abidələrin sənədləşdirilmə işi doğru, düzgün, dəqiq aparılmaldır. Bilirsiniz ki, Dövlət Xidmətində baş verən hadisələrdən sonra bir az qeyri-müəyyənlik var. Amma xidmət bu sahədə işini davam etdirir. Amma Dövlət Xidmətinin Bakıda yerləşən əməkdaş heyəti o qədər də böyük deyil ki, hər şeyə nəzarət etsin. Yəni Dövlət Xidmətinin hər rayonda iki-üç mühafizi var və onlar da nə edə bilər? Sadəcə, baxa bilərlər ki, qəbiristanlıqda 30 daş vardı, yerindədir, abidə keçən dəfə bu qədər çatlamışdı, indi bu qədər çatlayıb, bütün bunlarla bağlı yuxarıya məlumat verə bilərlər. Dövlət Xidmətinin əməkdaşları əsasən kargüzarlıqla məşğul olur, müxtəlif məktublara cavab verirlər. Bu məsələdə hər kəs öz məsuliyyətini başa düşməlidir - rayonlardakı fərdi şəxslərdən tutmuş icmalara qədər. Ən böyük problem yerlərdə icmanın olmamasıdır. Adamdan soruşarlar, sənin bu müqəddəs türbən niyə dağılır, niyə onu dağılmağa qoyursan? Beşon nəfər bir yerə yığışsınlar, Dövlət Xidmətinə müraciət etsinlər ki, müəyyən məbləğ pul toplamışıq, siz əməkdaşlarınızı göndərin, biz bu türbəni bərpa etmək istəyirik. Bir ictimai yanaşma olmaldır. Bu türbələri dövlət dağıtmır, camaat dağıdır".

F.Xəlilli hesab edir ki, xalq özü türbələrə, maddi-mədəni irsə sahib çıxmalıdır. O hesab edir ki, dövlətin qeydiyyata aldığı abidənin qorunmasında camaat da mühüm rol oynamalıdır: "Hər şeyi dövlətin üzərinə atmaq olmaz. Qəbirüstü abidələrin çoxunun heç üzəri oxunub öyrənilməyib. Kim öyrənəcək bunları? XXI əsrdir, amma o daşların üzərindəki yazıları kim oxuyacaq? Onların üzərində nə yazıldığını hələ də bilmirik. Əlaqədar elmi-tədqiqat institutları bu sahədə nə iş görürlər? Digər tərəfdən, bələdiyyələr nə iş görürlər? Bu məsələləri qabartmaqdan yorulmuşam. Bir də görürsən ki, hansısa abidənin ətrafında qazıntı aparılır. Belə şeylər olmaz. Hər kəs tarixi mədəniyyət abidələrinin vəziyyəti ilə maraqlanmalıdır. İctimai nəzarət gücləndirilməlidir və baş verənlərlə bağlı mühafizlər dövlət qurumlarına məlumat verməlidirlər. Hamı məsuliyyətdən kənarda. İctimaiyyət və icmalar xüsusən də qəbiristanlıqlar və türbələr məsələsində həssas olmalıdırlar".

Tanınmış mütəxəssis Rizvan Qarabağlı da hesab edir edir ki, Safıkürd qəbiristanlığında baş verənlərə çox təəssüflənir. "Bilirsiniz, qədim qəbiristanlıqlar və oradakı türbələr xüsusi mühafizə edilməlidir. Onlar tarixdir, tarixə isə bu cür münasibət göstərilməsi yolverilməzdir. Goranboy rayonunun Safıkürd kəndindəki türbəyə o cür münasibət qəbuledilməzdir. Hesab edirəm ki, bu məsələdə bələdiyyənin də üzərinə az məsuliyyət düşmür. Yerli bələdiyyələr qəbiristanlıqların və oradakı türbələrin qorunmasında xüsusi rol oynamılıdırlar. Bələdiyyələr bu məsələyə ciddi yanaşmalıdırlar. Maddi-mədəni irsə bu cür münasibət göstərənlər məsuliyyət daşıyırlar. Mən ictimaiyyətin də bu məsələyə məsuliyyətlə yanaşmasını arzulayıram. Dövlət Xidmətindən soruşmaq lazımdır ki, niyə o türbələrə, qəbiristanlıqlara belə münasibət göstərilib? Mənə elə gəlir ki, sualın cavabını onlar verməlidirlər. Konstitusiyamızın 77-ci bəndində açıq göstərilir ki, hər kəs maddi mədəniyyət abidələrini qorumalıdır" - deyə R.Qarabağlı vurğuladı.

***İradə SARIYEVA***

№ 90 (4221) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

9 İYUN 2020-ci il

www.baki-xeber.com



# Bu əməlləri edənlər beyni kiçik şəxslərdir...

**Oğurluq edən, zorakılıq törədən və yalan danışan adamların beyni normaldan daha kiçik olur.**

"Milli.Az" xəbər verir ki, bu fakt bir qrup Avropa universitetləri professorlarının araşdırması nəticəsində ortaya çıxıb. Elm adamları uşaqlıqda dissosial şəxsiyyət pozğunluğundan əziyyət çəkən 700 insanın anadan olmasından 45 yaşına qədərki dövrə qədər maqnit rezonans tomoqrafiya (MRT) analizləri ni təhlil edərək, həmin adamlarda beynin bəzi hissələrinin digərlərindən daha incə və dar olduğunu görüblər. Məhz bu özəllik dissosial davranışla əlaqələndirilib. Lakin bu durumun irsən keçməsi, narkotik maddələrdən asılılıq, aşağı IQ səviyyəsi və psixi sağlamlıqla bağlı olub-olmadığı müəyyən edilməyib. Sınaqda iştirak edənlər 3 qrupa ayrılıb. Bir qrupdakı könüllülər zorakılıq cinayəti törədənlərdən ibarət 80 nəfər olub. Onların beynində quruluş fərqi açıq-aşkar hiss olunub. Bu araşdırma həyatları boyunca ətraflarındakı insanlara hücum edən fərdlərin neyropsixoloji fərqlilikləri olduğunu da təsdiqləmiş olub. Elm adamlarına görə, yeniyetməlikdə dissosial davranış sərgiləyənlər, xəstəxanada yatmaq risqi daşıyanlar, həyatlarının irəliləyən dövrlərində fiziki və psixi sağlamlıqları zəifləyənlər bu baxımdan fiziki məhdudiyyətli şəxslər kateqoriyasına daxil edilə bilər.

## Beyin hüceyrələrini koronavirusdan qorumaq üsulu tapıldı

**Kaliforniya Universitetinin professoru Elison Muotrinin rəhbərliyi altında yerinə yetirilən yeni tədqiqatda neyrofizioloqlar və molekulyar bioloqlar aydınlaşdırıblar ki, Hepatit C virusunun müalicəsi üçün istifadə olunan "Sofosbuvir" adlı preparat beyin hüceyrələrini koronavirusdan qoruyur.**



"Ted.az" bildirir ki, tədqiqatçılar kök hüceyrələrindən kiçik beyin nümunələri yetişdiriblər. "Sofosbuvir"in tətbiqindən sonra virusa yoluxmuş hüceyrələrin sayı azalıb. Həmçinin, sinir sonluqlarının işində SARS-cov-2-nin səbəb olduğu pozuntular aradan qaldırılıb. Alimlərin fərziyyələrinə görə, preparat COVID-19-a yoluxmuş insanlarda ensefalopatiya (beyinin qeyri-iltihabi xəstəlikləri), epilepsiya tutmaları və hallüsinasiyanı aradan qaldırmaq imkanına malikdir. O, həmçinin, xəstələri iy və dadbilmə hissinin itməsindən qoruya bilər.

## "Nar" Müştəri Xidməti sərt karantin rejimi müddətində abunəçilərinə xidmət göstərməkdə davam edəcək

**Ölkədə son günlər koronavirusa yoluxmanın artmasının qarşısını almaq məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın həftəsonu evdən çıxmağı qadağan etməsilə əlaqədar olaraq "Nar" öz müştərilərinə gücləndirilmiş rejimdə xidmət göstərməkdə davam edəcək.**

Belə ki, abunəçilər evdən çıxmadan "Nar"ın onlayn və 24/7 rejimində fəaliyyət göstərən 777 Çağrı Mərkəzindən sorğularına operativ cavab ala bilərlər. Həmçinin, mobil operator rəsmi sosial media kanalları ("Facebook", "?nstagram" və "Twitter") vasitəsilə operativ şəkildə abunəçilərinə xidmət göstərməkdə davam edəcək. Bundan başqa, abunəçilər evdən çıxmadan "Nar+" tətbiqi vasitəsilə hesablarını daha asan idarə edə bilərlər. Tətbiq bir çox mühüm əməliyyatı bir neçə saniyə ərzində yerinə yetirməklə yanaşı, daxil olan sorğuları dərhal cavablandırır.

Qeyd edək ki, "Nar" öz müştərilərinin təhlükəsizliyini təmin etməyi, bütün kanalları vasitəsilə müştərilərə fasiləsiz yüksəkkeyfiyyətli xidmət göstərməyi özünün məsuliyyəti hesab edir.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq, qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Elan

Şəki rayonu, II Biləcik kənd sakini Xasıyev Kərim Abdulhəşim oğlunun adına verilmiş A-195782, A-195783, A-195801, A-195794, A-195793, A- 195787, A-195701 və A-195547 saylı torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Sədrəddinov Qabil Sabir oğlunun adına, Abşeron rayonu, Novxanı kəndində yerləşən bağ sahəsinin çıxarışı (seriya RX N0235037) itdiyi üçün etibarsız sayılır.

Mirzəyev İsmət Hacıbaba oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, Tbilisi pr, məhəllə 3007, blok D, mənzil 203 ünvanının "Tac Mahal" MTK tərəfindən verilmiş müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Rəsulov Orxan İmran oğlunun adına, Abşeron rayonu, Masazır kəndində yerləşən torpaq sahəsinə 04.04.2015-ci il tarixdə verilmiş çıxarış (qeydiyyat nömrəsi 1615007678, reyestr nömrəsi 308013094684), torpaq sahəsinin plan və ölçüsü, texniki pasportu və digər sənədləri itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Çeşməli kənd sakini Mustafayev Mustafa Məmmədəli oğlunun və ailə üzvlərinin adına verilmiş JN-103 qeydiyyatlı "Torpağa mülkiyyət hüququna dair dövlət aktı" itdiyindən etibarsız hesab edilir.





**Qoç** - Hisslərin və emosiyaların əsiri olmayın. Yaşam arealınızı müdaxilələrlə kənar təsirlərdən qoruyun. Bu gün öz kiçik dünyanıza sığının. Kimsəyə imkan verməyin ki, işlərinizə mane olsun, yolunuzda sədlər yaratsın.



**Buğa** - Yaşamınızda nə isə dəyişməyə başlayın. Hisslərinizi bölüşməyə tələsməyin. Yanınızdakı insanın uğurlarınıza olan münasibətini yəqin etməmiş planlarınızı onunla bölüşməyin. Axşam saatlarında səhhətinizə fikir verin.



**Əkizlər** - Yaxın ətrafınızdakı insanlardan biri və ya yaxın dostunuzla olan münasibətlərin sınaq dövrüdür. Ünsiyyətlər son günlərin hadisələrinin təsiri altında transformasiyaya uğrayır. Təmayüllər sizin üçün müsbətdir.



**Xərçəng** - Yaranan situasiyanın məzmununu və mahiyyətini dərk etməyə çalışın. Sizinlə eyni obyektə iddialı olan insanların gizlətməyə can atdıqları motivasiyaları çözün.



**Şir** - Emosional fonu uğursuz olacaq gündür. Təmasları azaldın, ünsiyyəti məhdudlaşdırın, telefonu söndürün, məlumatlara və kənar təsirlərə qapalı olun. Təkbaşına, müstəqil şəkildə çalışın.



**Qız** - Çalışdığınız insanlardan birinin sirrini açmaq, onun ikibaşlını oyununu, məkrli planını faş etmək gərəkdir. Mübhəm məqamları üzə çıxarmağa, hadisələrin inkişaf xəttini təxminləməyə çalışın.



**Tərəzi** - İşləri vaciblik və önəm səviyyəsindən asılı olaraq paylaşdırın. Sakit olun, aramla çalışın və bütün işləri başa vurmağa can atın. Dostlarla görüşmək, internetdə vaxt keçirmək istəsəniz də, diqqət və iştirakınızı tələb edən məsələlər var.



**Əqrəb** - Diqqət mərkəzindəsiniz. Uğur və nailiyyətlərinizin kəskin paxıllığa səbəb olmamasına çalışın. Yarışmayın, üstünlüklərinizi aşkar nümayiş etdirməyin. Enerji indi sizə başqa məqsədlər üçün gərəkdir.



**Oxatan** - Yaşananları emosional qəbul etməyin, qədərindən artıq narahat olmayın. Maraq qorxudan daha güclü ola bilər. İdeya və ya tədqiqat sizi cəlb edəcək. Soyuqqanlı və təmkinli olun. İfrat emosiyalar işin ziyanınadır.



**Oğlaq** - Yaşanan situasiya planlarınıza uyğundur və uzunmüddətli layihələrdən birinə başlamaq olar. Münasibətlərdəki yenilik rollara yenidən baxmağa vadar edəcək. Əlavə məsuliyyət yarana bilər.



**Dolça** - Başqalarını yaşam ərazisinizə buraxmayın. Özünüz də başqasının hisslərinə, işinə və planlarına kobud müdaxilə etməyin. Hər kəsin dəyər verdiyini qoruyun. Ev işləri ilə məşğul olun, yaxınlarınızın qayğısına qalın.



**Balıqlar** - Yeniliklər etməyə həvəsiniz azalır. Baş verənləri, hisslərinizi anlamağa çalışın. Yaxın ətrafınızdakı vurnuxmaların sayı artır. Bütün bunlara rəğmən situasiyanı tezliklə dərk etməyə çalışın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Nəyə görə asiyalılar koronavirusu yüngül keçirdi?

**Asiya ölkələrində koronavirusdan ölüm nisbəti dünyanın başqa hissələrində yerləşən dövlətlərlə müqayisədə azdır.**



"Medicina.az" bildirir ki, yaponiyalı professor və epidemioloq Kentaro İvatanın sözlərinə görə, həmin fakta səbəb genetik xüsusiyyətlər və insanların immun sistemi ola bilər. Asiyalıların genetik xüsusiyyətləri onlara virusun öhdəsindən asanlıqla gəlməyə kömək edir. Eyni zamanda, qitə sakinləri başqa viruslara yoluxaraq və vərəm əleyhinə peyvənd olunaraq orqanizmlərində immunitet formalaşdırıblar. Mütəxəssis qeyd edib ki, asiyalıların piylənmə, tromblaşma və yüksək təzyiq problemi azdır. Bunlar orqanizmin virusa qarşı həssaslığını azaldır.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.